

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tarixi bağlara söykənən möhkəm dostluq



7

№ 053 (6736)

SƏS

30 mart 2023-cü il.
Qiymәti 60 qәpik

# Ali Baş Komandanın Laçın missiyası!



2

*"Müharibədən ötən iki il yarım müddət ərzində bütün dünya, eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü".Bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib."Heç kim bizim iradəmizə təsir edə bilməz.*

# İkinci dəfə sübut olundu ki...



*Martın əvvəlində - Xocalıda yerləşən RSK-nın qərargahında Azərbaycan nümayəndə heyətinin Qarabağın erməni icmasının təmsilçiləri ilə görüşündən sonra növbəti müzakirələrin də reallaşdırılacağı istisna edilmirdi. Lakin həmin görüşlərin Bakıda keçirilməsi təklifi sonrakı müddətdə separatçılar tərəfindən qəbul olunmadı və onlar reinteqrasiya məsələsindən birdəfəlik imtina etdiklərini bir daha sübut etdilər.*

4

## Şəhərin bizə töhfəsi: nələri itirib, nələri qazandıq?



15

## Erməni KİV-i öz xalqını "it" adlandırdı



7

## Daha çox turist cəlb etmək üçün hansı addımlar atılmalıdır?



16

## Tehran rejiminin terror siyasəti – belucların tökülən qanları



12

## Binalarda xidmət haqqı problemi: öz evində kirayə yaşamaq?

*Şəhərlərdə çoxmənzilli binaların idarə edilməsi problemi həll edilmədi, əksinə, bu sahədə vəziyyət daha da gərginləşib. Bu sahədə 2 fərqli vəziyyət var. Köhnə binalar və yeni binalar. Sovet dövründə inşa edilmiş çoxmənzilli binalara icra...*



14

# Ali Baş Komandanın Laçın missiyası!

*PREZİDENT İLHAM ƏLİYEV: "Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz"*

***"Müharibədən ötən iki il yarım müddət ərzində bütün dünya, eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü".Bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib."Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik", - deyə dövlətimizin başçısı vurğulayıb.***

Bəli, bu gün sözü imzası qədər dəyərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının son 19 illik prezidentlik dövründə çoxəsrlik Azərbaycan tarixində xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən xalqın Prezidentin dediyi kimi: "Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz". Çünki bu qələbə, uğurlu nəticələr məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Güclü ordu - güclü dövlət" strategiyasının konsepsiyanın nəticəyidir və bu üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bir sözlə, ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev sözü imzası qədər dəyərli olan qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. Bir sözlə, sözü ilə əməli üst-üstə düşən, imzası qədər dəyərli olan Azərbaycan Prezidenti İlham Əliyev dediyi kimi: "Bizim sözümüz imzamız qədər keçərlidir, keçərli olduğu qədər həm də dəyərlidir".

### NƏYİ, NƏ VAXT VƏ NECƏ ETMƏYİ ÖZÜ BİLİR

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxışlarında bildirir: «Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm». Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan









İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi. Və bu gün Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən verdiyi tapşırıqlar bir daha deyilənlərin göstəricisi olmaqla, Qalib Liderimizin həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qələbəsidir. Prezident İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması ilə bağlı xalqa müraciətində demişdir: "Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə».

### BİZ ARTIQ BU DOĞMA DİYARIMIZDA ƏBƏDİ YAŞAYACAĞIQ

Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən onu da bildirib ki, İkinci Qarabağ müharibəsi başa çatanda rayon bizim nəzarətimizə keçsə də, Laçın şəhəri nəzarətimizdən kənarda idi.

Ardı Səh. 3

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığına əsasən, Prezidentin köməkçisi Anar Ələkbərov martın 28-də yaşadığı evin qarşısında terror aktına məruz qalmış Milli Məclisin deputatı Fazil Mustafanı dünən müalicə olunduğu xəstəxanada ziyarət edib, onun ailə üzvləri ilə görüşüb.

Millət vəkilinə dövlətimizin başçısının və birinci xanımın şəfa diləklərini çatdıran Anar Ələkbərov bildirib ki, Prezident İlham Əliyev onun tezliklə sağalması üçün tibb personalı tərəfindən bütün zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqların verib. Diqqətə çatdırılıb ki, xain terror aktını törətmiş şəxsin və ya şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində təxirəsalınmaz əməliyyat-istintaq tədbirlərinin aparılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən hüquq-mühafizə orqanlarına göstəriş verilib.

Milli Məclisin deputatı Fazil Mustafa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığını bildirib, hadisənin onu sarsıtmadığını vurğulayaraq, həmişə olduğu kimi bundan sonra da dövlətçilik ideyalarına sadiq qalacağını və heç nəyin onu bu yoldan çəkindirə bilməyəcəyini deyib.

# Ali Baş Komandanın Laçın missiyası!



*PREZİDENT İLHAM ƏLİYEV: “Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz”*

Əvvəli-Səh-2

Çünki Ermənistandan Qarabağa gedən yol Laçın şəhərinin ortasından keçirdi.Məsələnin həlli üçün göstərdiyi səylərdən danışan dövlətimizin başçısı deyib: «Avqustun 26-da biz Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Ondan sonra mən Laçın şəhərinə səfər etdim, Azərbaycan Bayrağını şəhərin mərkəzində qaldırdım və bəyan etdim ki, biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq”. Bütün bunlardan sonra isə Ermənistanın Laçın şəhəri, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşan erməniləri oradan çıxarmaq, Azərbaycanın tələblərinə boyun əyməkdən başqa çıxış yolu qalmadı.Bir sözlə, Prezident İlham Əliyevin nəyi, necə və nə vaxt etmək fəlsəfəsinin həyatiliyi, düzgünlüyü növbəti dəfə təsdiqini tapdı. Azərbaycan dövləti kapitulyasiyası, məğlubiyyəti ilə barışmayanlara siyasət, zəruri olduqda isə hərb meydanında başa salır ki, qarşısına qoyduğu məqsədə çatmaqda heç kim və heç nə ona mane ola bilməz. Bu yerdə xatırladaq ki, Laçın dəhlizinə alternativ yolu vaxtından əvvəl istifadə verən Azərbaycan 30 il qeyri-qanuni məskunlaşdıqları ərazilərdən çıxmaq üçün ermənilərə avqustun 25-dək vaxt vermişdi. Ermənistanın, onun havadarlarının, revanşistlərin, separatçıların yersiz etirazına baxmayaraq, Azərbaycan dövlətinin və Prezidentinin qətiyyəti sayəsində yenə də biz deyən oldu. Özgəsinin torpağında cənnətdə yaşamaq istəyən çağırılmamış qonaqlar qoyulan vaxtda gəldikləri yerə qayıtmalı oldular. Bu, həm də onun göstəricisidir ki, Prezident İlham Əliyevin idarəçiliyi, qəbul etdiyi qərarlar və əldə olunan nəticələr birbirini tamamlayır. Bundan sonra da belə olacaq və bunu hər kəs bilməli, anlamalıdır. Bu siyasət sistemlidir, əsaslıdır, beynəlxalq hüquqa söykənir.



### AZƏRBAYCAN PREZİDENTİ İKİ İL ƏRZİNDƏ QARABAĞIN DİRÇƏLİŞİ YOLUNDA BİR ÇOX DÖVLƏTLƏRİN 10 İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİYİ İŞLƏRİ REALLAŞDIRIB

Bu gün işğaldan azad olunmuş torpaqlarda görülən uğurlu bərpa-quruculuq işləri göz önündədir. Azərbaycan Prezidenti qələbəmizdən keçən iki il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb. Artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən “Xarıbülbül” festivalı bərpa olunub. ”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 19 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev bu ilin yanvar ayının 5-də 2022-ci ilin «Şuşa İli» elan edilməsi haqqında Sərəncamı tarixi hadisədir.




### AZƏRBAYCAN PREZİDENTİ BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ MƏĞLUBİYYƏTİN ƏSAS SƏBƏBLƏRİNİ AÇIQLAYIB

Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib ki, Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur. Bütövlükdə bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur: «Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək.Dövlətimizin başçısı bildirib ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin səbəblərini izah edən dövlətimizin başçısı deyib: “Ondan (Laçının işğalından-red.) bir il keçməmiş - 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur”.

### LAÇININ İŞĞALI AXC-MÜSAVAT XƏYANƏTKAR CÜTLÜYÜNÜN NÖVBƏTİ ÇİRKİN XƏYANƏTİ İDİ

“Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonu da işğal edildi. Bu, ölkəmiz üçün, laçınlılar üçün böyük faciə idi və bu, AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi”.Bu fikirləri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.Dövlətimizin başçısı deyib: “AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu”.

### AZƏRBAYCAN DÖVLƏTİ LAÇINA QAYIDACAQ KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİN RAHAT YAŞAMASINI TƏMİN EDƏCƏK

Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən onu da vurğulayıb ki, Laçın rayonunun təhlükəsizliyinin qorunması bizim əsas vəzifələrimizdən biridir: “Bundan sonra Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması bizim üçün əsas vəzifələrdən biridir”. Laçın rayonunun təhlükəsizliyi ilə bağlı atılan addımlardan danışan dövlətimizin başçısı deyib ki, Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri başa çatmaq üzrədir: “Beləliklə, bu gün biz Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olmuşuq və bu mövqelərdə özümüzü gücləndiririk, bu mövqelərdə qalacağıq”.“Artıq iki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir»,-deyən dövlətimizin başçısı Hava limanının yerini müəyyən edərkən qarşıya çıxan çətinliklərdən də danışıb: «Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək”.

### BİRİNCİ MƏRHƏLƏDƏ LAÇIN ŞƏHƏRİNDƏ 500-Ə YAXIN FƏRDİ EV İNŞA EDİLİR VƏ YA ERMƏNİLƏR TƏRƏFİNDƏN DAĞIDILMIŞ EVLƏR YENİDƏN BƏRPA OLUNUR

Kəlbəcər-Laçın yolu yenidən qurulduğunu və bölgədə bir çox tunellər inşa ediləcəyini deyən Prezident İlham Əliyev onu da söyləyib ki, Kəlbəcər və Laçın rayonlarında bizim ən çox tunellərimiz məhz o bölgədədir və Murov dağının altından keçən tunelin uzunluğu təxminən 12 kilometr olacaq: “Beləliklə, biz Göygöl rayonundan da Şərqi Zəngəzura yol açırıq. Eyni zamanda, Qubadlı-Laçın yolu da sürətlə inşa edilir”.Prezident İlham Əliyev minlərlə laçınlının bu il öz doğma diyarına qayıdacağını deyərək bildirib ki, Laçın şəhərinin yenidən qurulması keçən ilin avqustun 26-dan bu yana icra edilir. Birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur.

Çoxmərtəbəli səkkiz yaşayış binasının yenidən qurulduğunu, 30-dan çox ictimai binanın inşa edildiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, bütün bu işlər ilin sonuna qədər başa çatdırılmalıdır: “Minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar”.Bir sözlə, bu gün Prezident İlham Əliyev cənablarının Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbulu zamanı görülən işlər, verdiyi tapşırıqlar bir daha Qalib Liderimizin qətiyyətinin təcəssümüdür.Dövlət başçımızın dediyi kimi: “Əminəm ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir. Bax, mənim tapşırıqlarım bundan ibarətdir, siz mənim etimadımı doğrultmalısınız”.

***RƏFİQƏ KAMALQIZI***

# İkinci dəfə sübut olundu ki...



## *RSK üzərinə düşən öhdəliklərini yerinə yetirmir, separatçıların nazları ilə oynamaq isə qətiyyən Bakının marağında deyil*

***Martın əvvəlində - Xocalıda yerləşən RSK-nın qərargahında Azərbaycan nümayəndə heyətinin Qarabağın erməni icmasının təmsilçiləri ilə görüşündən sonra növbəti müzakirələrin də reallaşdırılacağı istisna edilmirdi.***

Lakin həmin görüşlərin Bakıda keçirilməsi təklifi sonrakı müddətdə separatçılar tərəfindən qəbul olunmadı və onlar reinteqrasiya məsələsindən birdəfəlik imtina etdiklərini bir daha sübut etdilər. Xüsusən də, martın 5-də torpaq yolda baş verən məlum silahlı insidentdən sonra Qarabağdakı cinayətkar-quldur rejimin rəhbərliyi vəziyyətin daha da gərginləşməsi yönündə israrlı olduqlarını nümayiş etdirdilər. Təbii ki, bu məsələdə Ermənistanın yeri və rolu olması ilə yanaşı, Rusiyanın da ayrıca iştirakı artıq kifayət qədər şübhə doğurmur. Bir tərəfdən özünü "vasitəçi" olaraq təqdim edən Moskvanın digər tərəfdən ikibaşlı oyunbazlıqlara yol verməsi əvvəl-axır Bakının səbrini tükəndirməliydi!

### RSK-nın əməllərinin necə inkişaf edəcəyi əvvəlcədən məlum idi

Zatən, elə əvvəlinci gündən – RSK-nın Qarabağa müvəqqəti yerləşməsindən başlayaraq məlum idi ki, Rusiya Qarabağda cərəyan edən olaylar fonunda regiondakı mövcudluğunu möhkəmləndirməyə cəhdlər göstərəcək və bu məsələdə ermənilərə yaxınlığı məxsusi olaraq seçiləcək. Yəni bitərəflik barədə söhbət belə ola bilməzdi.

Təkcə bir misal gətirək – RSK-nın Xankəndidə separatçılar tərəfindən bəhbəhlə qarşılanması, Kəlbəcərdən çıxan ermənilərin onsuz da onlara məxsus olmayan evlərə od vurması, meşələrimizi qırması və s. kimi hadisələrə gözlərin yumulması bu həqiqətləri əsaslı qaydada isbatlamaqdadır. Sonrakı proseslərdə də RSK-nın vecsizliyi, etinasızlığı bölgədə erməni terrorunun qalması siqnallarını verməkdə idi: erməni terrorçusunun Azərbaycan postuna qumbara atması, separatçıların təmas xətlərində səngərlər qazması, Ermənistandan silahların, minaların və hərbilərin Qarabağa daşınması, nəhayət, yataqlarımızın çapılıbtalanması - bütün bunlar faktlardır və hər biri də ayrıca olaraq sənədləşdirilib!

Əgər bu gün Azərbaycan vətəndaşı Rusiya "sülhməramlısının" Qarabağda qalmasını istəmirsə və bunu rəsmi Bakı da açıq şəkildə eyham vurursa, deməli ortada haqlı iradlar haqlı narazılıqlar var. Bundan sonra isə RSK hər hansı "düzəlişlər" etmək görüntüsü yaratmağa səy göstərsə belə, həmin cəhdlərin süniliyinə qətiyən şübhələr olmayacaq. Ona görə ki, qarşıya qoyulan məqsəd – üçtərəfli Bəyanatdakı bəndlər hələ də icra olunmamış qalır və qalmağa davam etdikcə vəziyyət daha da gərginləşir. Belə olan əsnada gərginliyin yaranmasında Moskvanın marağının olması da artıq ələhəzrət faktlara dayanır!

### Araik "təhlükəsizlik şurasının" qapalı iclasını keçirir – məqsəd RSK-nın burnunun altında və qulağının dibində təxribatlar törətməkdir!

Və nəhayət – Araik Arutyunyan Moskvaya təlimatlar almağa gedirsə, onun səfərləri baş tutursa, buradan başqa hansı nəticələri hasil etmək olar? Bəli, qarabağlı ermənilərin situasiyanı Rusiyanın məlum dairələrinin sifarişləri əsasında gərginləşdirməkdədirlər. Məsələn, Rusiyadan geri döndüyü deyilən Araik Arutyunyanın "təhlükəsizlik şurasının" iclasını keçirdiyi bildirilir. Bu iclasda deyilənlərə görə, hətta qonarma "resublikanın" saxta "deputatları" da iştirak ediblər. İclasın gündəliyi isə əlbəttə ki, məlum idi. Bildirilir ki, Araik iclas zamanı xarici ölkələrdən incik düşdüyünü bildirib və iclas iştirakçılarını da xarici ölkələrdən inciməyə çağırıb. Yəni, beynəlxalq aləm "blokadada" (?!) qalan "məzlum" separatçılara görə Azərbaycana yetərincə təzyiqlər göstərmir və s.

İclasın qapalı keçməsinə rəğmən, orada qəbul edilən qərarların nələrdən ibarət olacağını da ayırd etmək çətin deyil. Hər halda bir yerə quldurlar, cinayətkarlar, terrorçular toplaşıblarsa orada hansı qərarın veriləcəyi də məlumdur: vəziyyəti gərginləşdirmək, səngərlər qazmaq, atəş açmaq və RSK-nın kürəyi arxasından təxribatlar törətmək. Cavab veriləndə isə günahı Azərbaycan hərbçilərinin üzərinə yıxmaq. Onsuz da RSK-nın saxta bülletenlərində də həmin məsələlər "qeyd" edilir.

### Bu təxribatlara cavabın necə veriləcəyini isə indidən bəlli etmək mümkündür

Fakt budur ki, RSK-nın burnunun altında, yaxud qulağının dibində səngərlər qazılır. Hətta bu məsələdə hərbçilər deyil, həm də mülkilər də iştirak edirlər. Deyilənlərə görə, istehkamların qurulmasında əlillərin də cəlb edildiyi üzə çıxıb. Beləliklə, RSK üzərinə düşən öhdəliyini yerinə yetirə bilmir və bundan sonra hər hansı konstruktiv danışıqların da müsbət nəticə verəcəyini düşünmək olmaz. Separatçılar yalnız və yalnız təxribatlara hazırdırlar. Bu təxribatlara cavabın necə veriləcəyini isə indidən bəlli etmək mümkündür: Fərrux, Daşbaşı və s. dəqiqləşdirmə əməliyyatlarında olduğu kimi. Onlardan biri artıq reallaşdırılıb – Xankəndi-Xəlfəli-Turşsu yolu bizdədir...

***Rövşən RƏSULOV***

***P.S.** Bakı iki dəfə separatçıları paytaxta görüşə dəvət etdi. Onlar gəlmədilər. Gəlmədilərsə, demək, top bizdədir və bu top heç də o topdan deyil. Bu topun mərmisi çox uzaqlara uçur və hədəfi dəqiq vurur...*

# "Ermənistan Azərbaycanın şərtlərini qəbul etməlidir"

"30 illik münaqişə dövründə danışıqlar zamanı hansısa nəticəyönümlü situasiya yarananda Ermənistan həmişə bu və ya digər formada prosesi pozub. Ya yeni mürtəce təklif və tələblər irəli sürməklə, ya müzakirələrdən yayınmaqla, ya atəşkəsi pozaraq vəziyyəti gərginləşdirməklə, ya da hətta fasilə adı ilə görüşdən çıxıb geri qayıtmamaqla". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.



Onun sözlərinə görə, Vətən müharibəsindəki qələbəmizlə münaqişəyə son qoyduqdan sonra cənab İlham Əliyevin dayanıqlı sülhə nail olmaq istiqamətində həyata keçirdiyi səylər çərçivəsində də biz ermənilərin ənənəvi pozucu fəaliyyətinin şahidi olmaqdayıq: "Sadəcə bu dəfə Ermənistan əvvəlki dövrün təcrübəsindən fərqli olaraq, torpaqları işğalda saxlayan, yüksəkliklərə hakim olan tərəf yox, mövcudiyyəti bizim iradəmizdən asılı olan subyektdir".

Deputat sözlərinə belə davam edib: "Azərbaycan mümkün sülh prosesini, eləcə də sərhədlərin delimitasiya və demarkasiyasını dinc yolla həyata keçirmək niyyətindədir. Lakin proseslərin qansız-qadasız reallaşması naminə biz daha 30 ilimizi qurban vermək fikrində deyilik və nəyin bahasına olur-olsun milli maraqlarımız təmin olunacaq.

Təsadüfi deyil ki, dövlət başçımız da İrəvana 2023-cü ilin son şans ili olduğunu açıq formada bəyan edib. İndi növbə Ermənistanındır, ya verilən şansdan istifadə edəcək, ya da cənab Prezidentin Talış kəndindən də bəyan etdiyi kimi, "sülh Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?".

Ermənistan dövlət kimi mövcudiyyətini qorumaq istəyirsə ən qısa müddətdə sülh prosesində səmimi davranış göstərməli, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan şərtlərini qəbul etməlidir, əks halda onlar üçün 29 min km2 rahat yaşayışdan söhbət gedə bilməz. Bu bir təhdid deyil, bu tezliklə sülh müqaviləsi imzalanmazsa bütövlükdə onları gözləyən situasiyadır".

***Ayşən Vəli***

# Kənddəki gənclər niyə şəhərli olmaq arzusundadır?



"Hal-hazırda ölkənin 51 ali təhsil müəssisəsində 187 min tələbə təhsil alır və bir qəbul ilində məsələn, 2022-ci ildə ali təhsil müəssisələrinin bakalavr pilləsinə 48 minə yaxın tələbə qəbul edilmişdir. 2023-cü ildə bu il nəzərdə tutulur ki, 60 min gəncin ali təhsil müəssisələrinin təkcə bakalavr pilləsinə qəbul olsun. Təbii ki, 2010-cu illə müqayisə edəndə görürük ki, 2010-cu ildə ali təhsil müəssisələrinin bakalavr pilləsinə cəmi 29 min adam qəbul olmuşdusa, 2023-cü ildə bu rəqəmin 60 min olması proqnozlaşdırılır. Baxırıq ki, ali təhsil müəssisələrinə qəbul olmaq istəyənlər heç də hədəfi ali təhsil almaq və əmək bazarında ixtisaslı mütəxəssis olmaq deyil. Onlar yaşayış yerlərini tərk etmək, gələcək iş karyeralarını kənddən, qəsəbədən, rayondan kənarda qurmağı planlayanlardılar, Hətta biz məzunların əmək bazarında işlə təminatına baxanda da bu rəqəmləri görə bilirik ki. məsələn ali təhsil müəssisələrinin məzunları yalnız 42 faiz ixtisas üzrə işləyə bilib". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.Onun sözlərinə görə, bu o deməkdir ki, onların böyük əksəriyyəti həmin ixtisasın arxasınca yox, məhz yaşayış yerlərini tərk etmək məqsədilə bu missiyanı öz üzərlərinə götürüblər: "Digər tərəfdən burada bir məqam xüsusilə qeyd edilməlidir ki, ali təhsil müəssisələri əmək bazarı tərəfindən və müasir standartlara cavab verən kadr hazırlamır. Biz baxırıq ki, hətta ali təhsil müəssisələrinin özləri də maraqlıdırlar ki, plan yerləri dolsun. Misal üçün 1 və 4-cü qrupda hətta ən aşağı ballarla, 190 balla ali təhsil müəssisəsinə qəbul olmaq mümkündür. 3-cü ixtisas qrupunda Regionşünaslıq ixtisasına hətta dövlət universitetlərinə 157 balla qəbul olmaq mümkün olub.Bu rəqəmlər onu deyir ki, yəni həmin şəxslər ali təhsil almaq yox, konkret olaraq hərbi xidmətdən 4 il möhlət almaq, və yaxud da yaşayış yerini tərk etmək məqsədilə ali təhsil müəssisələrinə giriblər. Bu yaxşı hal deyil. Çünki sonradan əmək bazarında ali təhsilli amma mütəxəssis olmayan şəxslərin sayı çoxalır".Kamran Əsədov sözlərinə belə davam edib: "Ümumilikdə, Azərbaycanda ali təhsilli vətəndaşların sayı çox deyil. Ümumi ölkə vətəndaşlarının cəmi 17 faizi ali təhsillidir. Bəli, biz dayanıqlı iqtisadiyyatı formalaşdırmaq istəyiriksə, ali təhsilli insanların sayını çoxaltmalıyıq. Amma bu kəmiyyət artımı keyfiyyətin aşağı düşməsi hesabına olmamalıdır. Bu ciddi bir məsələdir və mən hesab edirəm ki, birmənalı şəkildə biz ali təhsilin keyfiyyətini artırmalıyıq ki, həmin məzunlar sonradan əmək bazarında işləyə bilsinlər".

***Ayşən Vəli***

# İsraildə Azərbaycan səfirliyinin rəsmi açılışı olub




Martın 29-da İsraildə Azərbaycan səfirliyinin rəsmi açılış mərasimi keçirilib. SİA AZƏRTAC-a istinadən xəbər verir ki, tədbirdə Azərbaycan və İsrailin xarici işlər nazirləri Ceyhun Bayramov və Eli Kohen, həmçinin hər iki ölkənin parlament, ictimaiyyət və incəsənət nümayəndələri iştirak ediblər. Mərasim hər iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən nazir Ceyhun Bayramov səfirliyin açılışını iki ölkə münasibətlərinin inkişafına yeni təkan verəcəyini bildirib. Diplomat Azərbaycan-İsrail əməkdaşlığının müxtəlif istiqamətlərindən danışıb, perspektiv imkanları qeyd edib. O deyib ki, Azərbaycanın yəhudi icması cəmiyyətimizin inkişafına öz töhfəsini verir. Nazir səfirliyin açılışından sonra İsraildəki Azərbaycan diasporunun fəaliyyətinin də akitvləşəcəyinə əmin olduğunu söyləyib.

Mərasimi tarixi hadisə adlandıran nazir Eli Kohen 30 illik əməkdaşlıq müddətində səfirliyin açılışının strateji əlaqələrin dərinliyindən xəbər verdiyini vurğulayıb. Azərbaycanı İsrailin strateji tərəfdaşı adlandıran nazir iki ölkənin müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini bildirib. O, münasibətlərimizin bundan sonra daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

Sonra nazirlər səfirliyin adı olan lövhəni təqdim ediblər. Mərasim Azərbaycan incəsənət xadimlərinin konsert proqramı ilə davam edib.

# “Fazil Mustafaya qarşı törədilən xain hücumun tarixi təsadüfən seçilməyib”



“Deputat Fazil Mustafaya silahlı və xain hücumda istifadə edilən “kalaşnikov” terror silahı olduğundan diqqətlə araşdırılmalı və təqib edilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında türk politoloq Hakan Aktürk deyib. Onun sözlərinə görə, deputata olunan bu hücum bütün Azərbaycana və millətimizə qarşı törədilən çirkin terrordur: “Azərbaycan dövləti bu xain hücumun təşkilatçılarını və icraçılarını tez bir zamanda yaxalayacaq və lazımi cəzasını verəcək”.

Hakan Aktürk sözlərinə belə davam edib: “Bildiyimiz kimi, 27 yanvar 2023-cü ildə Azərbaycanın İrandakı Səfirliyinə qarşı terror hücumu olmuşdu. Bunun ardınca Hiper marketlərdən birinə marketin önündə silahlı hücum oldu. Fazil Mustafaya qarşı törədilən xain hücumun tarixi təsadüfən seçilməyib. Dünən DTX-nın 104-cü ildönümü idi. Hadisəni törədən bu əclaflara ən ağır şəkildə cavab veriləcək. Hadisənin baş verməsi və sonrakı vəziyyəti diqqətlə araşdırılır. Fazil Mustafa dövlət adamıdır. Azərbaycan dövlətinin bütün qurumları həssaslıqla hadisə yerində və onun ailəsinin yanındadır. Türkiyə dövləti olaraq biz də Fazil Mustafanın yanındayıq. Fazil bəyə - əziz qardaşımıza, ailəsinə, sevənlərinə və bütün Azərbaycan xalqına keçmiş olsun diləklərimi çatdırıram”.

*Ayşən Vəli*

# Bütün uğurlarımızın əsasında Heydər Əliyev siyasəti dayanır!

*YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*



***“Heydər Əliyev İli” çərçivəsində martın 29-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Suraxanı rayonu Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə YAP-ın Suraxanı və Sabunçu rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər.***



Əvvəlcə “Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanışlıq olub. Sonra ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb. Daha sonra rayonun Heydər Əliyev



Mərkəzi ziyarət edilib. Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan olunub. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən “Heydər Əliyev İli” ilə əlaqədar Tədbirlər Planı hazırlanıb və İdarə Heyətinin qərarı ilə təsdiq edilib. Bu tədbir də həmin Plana uyğun olaraq təşkil edilib.

Sonra çıxış edən YAP Veteranlar Şurasının üzvü Sudeyf İmamverdiyev gənclərə bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən danışıb. Bildirib ki, hər bir xalqın tarixində müstəsna rol oynayan, xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətlər var. Azərbaycan xalqının tarixində də məhz belə bir şəxsiyyət ümummilli liderimiz Heydər Əliyevdir. Heydər Əliyev bütün həyatını doğma xalqının inkişaf və tərəqqisinə həsr etmiş, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. O xatırladıb ki, 1990-cı illərin əvvəlində Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını görən 91 nəfər ziyalı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona rəhbərlik etməsini təklif etdi. Çünki xalqın ümidi məhz Heydər Əliyevə idi. Ulu Öndərin cavabı müsbət oldu, 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyası yaradıldı, 1993-cü ilin iyun ayında isə Ümummilli Lider hakimiyyətə qayıdaraq Azərbaycanı parçalanmaqdan xilas etdi. S.İmamverdiyev deyib ki, Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirib.

YAP Veteranlar Şurasının üzvü Adilə Abasova çıxış edərək ümummilli lider Heydər Əliyevin mənalı ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. O bildirib ki, Heydər Əliyev tarix yazan və yaradan bir şəxsiyyətdir: “Ulu Öndər bütün varlığı ilə xalqını, Vətənini sevirdi, doğma Azərbaycanın yüksəlməsi üçün var qüvvəsi ilə çalışırdı. Deyə bilərəm ki, Heydər Əliyevin həyat və fəaliyyəti bir tarixdir”.

A.Abasova deyib ki, müstəqil dövlətimiz özünün yeni inkişaf dövrünü yaşayır. Ötən illərə nəzər salarkən biz bu dönməz inkişafın möhkəm təməlinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunun şahidi oluruq. Bu, bir həqiqətdir ki, Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli istəyi ilə ikinci dəfə Azərbaycanın rəhbərliyinə gələndən sonra müstəqilliyimiz məhz onun qətiyyəti, zəngin təcrübəsi, güclü iradəsi, xalqına bağlılığı sayəsində əbədi xarakter aldı və dövlətimiz bütün sahələrdə inkişafa, yüksəlişə doğru irəlilədi. O, gəncləri Heydər Əliyevin zəngin irsini dərindən öyrənməyə çağırıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə çıxışında Heydər Əliyevin memarlıq sənətinə olan diqqətindən ətraflı bəhs edib. E.Qasımzadə qeyd edib ki, Heydər Əliyev hələ sovet dövründə milli memarlığın qorunub saxlanılmasında, yaşadılmasında böyük xidmətlər göstərib. Bu da Ulu Öndərimizin milli dəyərlərimizə verdiyi yüksək qiymət idi. Heydər Əliyev, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin memarı kimi öz adını tariximizə əbədi həkk edib. YAP Veteranlar Şurasının üzvü hər bir ölkənin uğurlu gələcəyinin gənclərdən asılı olduğunu deyib. Ona görə də Azərbaycan gəncliyi müstəqil dövlətimizi qorumaq, daha da inkişaf etdirmək üçün yüksək biliklərə yiyələnməli, layiqli vətəndaş kimi formalaşmalı və milli-mənəvi dəyərlərimizi qorumalıdırlar.

YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyeva isə bildirib ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının gənclərə aşılanmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib, həmin dövrlərdə bütün sahələr inkişaf edib. Z.Quliyeva deyib ki, ölkəmizdə gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Qazanılan bütün uğurların əsasında isə Heydər Əliyev siyasəti dayanır. Daha sonra gənclərin sualları cavablandırılıb.

# Müstəqil Azərbaycan dövləti Heydər Əliyev ideyaları əsasında zirvələr fəth edir

## Abşeronda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib









***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Abşeron rayonunda "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda tədbir keçirilib.***

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Abşeron rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdən öncə "Heydər Əliyev Abşeronda" adlı fotosərgiyə baxış keçirilib.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. O, Ulu Öndərin ideyalarının əbədiyaşar olduğunu bildirib. Abbas Əliyev vurğulayıb ki, bu gün müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zirvələr fəth edir.

Tədbirdə çıxış edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev qeyd edib ki, Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görə bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur: "Heydər Əliyev ideyaları Azərbaycana möhtəşəm nailiyyətlər qazandırıb. Ölkəmiz bundan sonra da Heydər Əliyev yolu ilə irəliləyərək zirvələrə yüksələcək".

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov vurğulayıb ki, Heydər Əliyevin mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır: "Ümummilli lider Heydər Əliyevin fəaliyyətində doğma xalqına bağlılıq daim özünü göstərib. O, Azərbaycan dövlətini tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarmışdır. Bu məsuliyyətli işin öhdəsindən isə müdrik siyasəti ilə gəlmişdir".

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov deyib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir.

YAP Veteranlar Şurasının üzvü Asif Cahangirov bildirib ki, xalqımız üçün müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlayıb, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter alıb.

Tədbirdə, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, Vətən müharibəsi şəhidi Fərid Məmmədovun həyat yoldaşı Şəhla Məmmədova və Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsi şəhidi İlqar Vəliyevin oğlu, YAP Abşeron rayon təşkilatının fəal üzvü Vəli Vəliyev çıxış edərək vurğulayıblar ki, Heydər Əliyev tarixi şəxsiyyətlər sırasında öz layiqli yerini tutub, xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Qeyd olunub ki, bu gün xalqımız Ümummilli Liderin layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

Sonda YAP sıralarına yeni qoşulmuş qazilərə üzvlük vəsiqələri təqdim olunub.



# "Mübarizənin bir tərəfində Ərdoğan, digərində Qərb dayanır"

"İlk növbədə onu qeyd edim ki, AKP hakimiyyətə gəldiyi son 20 il müddətində heç vaxt indiki qədər ciddi müqavimətlə üz-üzə qalmayıb. Bildiyiniz kimi, bugünkü gündə Rəcəb Tayyib Ərdoğanı prezidentlik kürsüsündən yola salmaq üçün Türkiyədə "Altılı masa" adlı koalisiya formalaşdırılıb. Bu koalisiyanın formalaşması müxalifət liderinin reytinqinə müsbət mənada təsir edib. Hətta bəzi agentliklərin keçirdikləri sosial sorğuların nəticələrinə inansaq, söyləyə bilərik ki, bir sıra hallarda Kamal Kılıçdaroğlu öz rəqibi Rəcəb Tayyib Ərdoğanı cüzi faiz dərəcəsi ilə də olsa üstələyə bilib". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev deyib.

Onun sözlərinə görə, bu sorğuların nəticələri, eyni zamanda Türkiyədə müxalifətin birləşməsi 14 may tarixində Türkiyədə keçiriləcək seçkilərə hər kəsin diqqətini cəlb edəcək: "Əslində, bu mübarizə Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıçdaroğlu arasında gedirmiş kimi görünsə də, elə hesab edirəm ki, tərəflərdən biri Qərb, xüsusilə də ABŞ-dır. Cozef Baydenin ABŞ prezidenti olan zaman seçki kampaniyasında belə bir fikir səsləndirmişdir ki, əgər mən prezident olacamsa, Türkiyə müxalifətinə Rəcəb Tayyib Ərdoğanın hakimiyyətdən getməsi üçün əlimdən gələn dəstəyi verməyə hazıram. Bu fikrin özü də təsdiqləyir ki, 14 mayda keçiriləcək seçkilərdə bir tərəfdə Rəcəb Tayyib Ərdoğan dayanırsa, digər bir tərəfdə Qərb dayanır.



Bununla belə mənim təhlillərimə əsasən, bu seçkinin də qalibi Rəcəb Tayyib Ərdoğan olacaq. Belə ki seçki tarixinə qədər hələ müəyyən vaxt var. Nəzərə alsaq ki, siyasət üçün 24 saatın özü də böyük bir nəticədir, bu müddət ərzində hər an vəziyyət dəyişə bilər".

Politoloq sözlərinə davam edərək bildirib ki, Ərdoğanın kifayət qədər seçki təcrübəsi var və öz rəqibindən fərqli olaraq seçki texnologiyasını daha yaxşı bilir: "Bundan əlavə onun manevr etmək imkanları daha genişdir. Bu komponentləri nəzərə alsaq, bu seçkini Rəcəb Tayyib Ərdoğanın qalibiyyətlə başa çatdıracağına inanıram. "Altılı masa" koalisiyası formalaşsa da, onlar hələ daşları tam olaraq yerinə oturda bilməyib. Müxalifət, xüsusilə də Kamal Kılıçdaroğlu ciddi cəhdlə can atır ki, HDP-nin səslərini özünə yönləndirsin. HDP də buna razılıq verib. Amma əminəm ki, HDP koalisiyanın qarşısında hər hansı bir şərt qoyacaq. "Altılı masa"nın o şərtləri qəbul edəcəyini düşünmürəm. Ona görə də böyük ehtimalla 14 may tarixinə kimi "Altılı masa" ya ümumilikdə parçalanacaq, ya da hər hansı biri qopmalı olacaq. Bu da Rəcəb Tayyib Ərdoğanın yenidən prezident seçilməsi üçün müsbət rol oynayacaq.

Bu bir danılmaz həqiqətdir ki, bu gün heç bir dünya ölkələrinin bir-biri ilə qura bilmədiyi əlaqələri Azərbaycan və Türkiyə qurub. Bu şəraitin yaradılmasında Azərbaycan Prezidenti İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan kimi iki böyük şəxsiyyətin adını xüsusi qeyd etməliyik. Bu iki liderin şəxsi münasibətləri fonunda dövlətlərarası münasibətlər də formalaşdı. Kamal Kılıçdaroğlu hakimiyyətə gəlsə, bu əlaqələr daha da dərinləşəcəyini düşünmürəm".

***Ləman Əlizadə***

# Tarixi bağlara söykənən möhkəm dostluq



*Təl-Əvivdə Azərbaycan səfirliyinin fəaliyyətə başlaması ikitərəfli əlaqələrdə yeni mühüm səhifə açacaq və hər iki ölkənin siyasi və təhlükəsizlik maraqlarına xidmət edəcək*

Azərbaycan-İsrail münasibətləri hər iki tərəfin xoş məramına əsaslanır və uğurla inkişaf edir. Bu gün iki dost ölkənin qarşılıqlı münasibətlərinin tarixində daha bir əlamətdar hadisə yaşanacaq-İsrail dövlətində Azərbaycanın səfirliyi fəaliyyətə başlayacaq. Bu münasibətlə Azərbaycan XİN-in yüksəksəviyyəli rəsmiləri və Milli Məclisin deputatları Təl-Əvivə gəliblər.

Xatırladaq ki, Prezident İlham Əliyev 2022-ci il noyabrın 18-də "Azərbaycan Respublikasının İsrail Dövlətində (Təl-Əviv şəhərində) səfirliyinin təsis edilməsi haqqında" Qanunu imzalayıb. Dövlətimizin başçısı Muxtar Məmmədovun Azərbaycan Respublikasının İsrail Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında müvafiq Sərəncam imzalayıb.

### Ənənələr yaşayır

Ötən il Azərbaycanla İsrail arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam oldu. Məmnunluqla qeyd edək ki, ötən 30 ildə iki ölkə arasında siyasi, iqtisadi, hərbi-texniki, səhiyyə, mədəni və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edərək yüksək səviyyəyə çatıb. Ancaq Azərbaycan-İsrail əlaqələri yalnız 30 illik tarixlə məhdudlaşmır. Bu əlaqələr xalqlarımız arasında tarixən mövcud olmuş sıx dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. "İsrail və Azərbaycanın dostluğu təsadüfi münasibətlərə əsaslanmır və xalqlarımız arasındakı münasibət də yeni deyil. Bu münasibətlərin çox qədim tarixi kökləri var. Tarixən hər iki xalq arasında qardaşlıq ənənəsi yaranıb. Ölkələrimiz arasındakı yüksək səviyyəli münasibətlər də məhz xalqlarımızın qədim köklərə söykənən tarixi qardaşlıq bağlarına əsaslanır. Əsrlərdir ki Azərbaycan xalqı ilə yəhudi xalqı arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri formalaşıb. Əlbəttə ki müstəqil Azərbaycanla İsrail dövləti arasında əlaqələrin daha da genişlənməsində və inkişaf etməsində xalqların tarixdən gələn qardaşlığı böyük rol oynayıb". Bu fikirləri "Yeni Azərbaycan"a müsahibəsində İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyinin direktoru Mirsamir Məmmədov ifadə edib.

### Azərbaycanda heç vaxt anti-semitizm olmayıb

Multikultural cəmiyyətə malik olması Azərbaycanın böyük üstünlüyüdür. Bu sahədə dövlətin və cəmiyyətin maraqları üst-üstə düşür. Öz növbəsində yəhudilər də bu mehriban ailənin üzvləridirlər. Bunu diqqətə çatdıran M.Məmmədov vurğulayıb: "Azərbaycanda əsrlər boyu təqribi 2600-2700 ilə yaxındır ki, yəhudilər yaşayırlar. Yəhudilər Azərbaycanda hər zaman mehriban və dostluq şəraitində öz həyatlarını qurublar. Burada heç bir zaman anti-semitizm yəhudi təqibi olmayıb. Azərbaycan xalqı bütün tarix boyu yəhudilərə xoş məram nümayiş etdirib".

Azərbaycanda doğulan və hansısa bir səbəbdən xaricə köç edən yəhudilər də hər zaman Azərbaycanı özlərinə Vətən, Azərbaycan xalqını isə qardaş sanıblar. Birinci və İkinci Qarabağ müharibəsində də yəhudilər Azərbaycanın ərazi bütövlüyü uğrunda mətanətlə döyüşüblər. Hər iki müharibədə çoxlu sayda yəhudi əsilli könüllü döyüşlərə qatılaraq şəhidlik zirvəsinə yüksəliblər.

Fikirlərinə davam edən Mirsamir Məmmədov vurğulayıb: "Xaricə köç edən yəhudilər daim Azərbaycanla digər dünya dövlətləri, xüsusən də ABŞ İngiltərə Almaniya İtaliya və s. ölkələr arasında yaxşı münasibətlərin olmasına çalışırlar. Qeyd edim ki, onlar Azərbaycanla İsrail arasında münasibətlərin dərinləşməsinə də öz töhfələrini verirlər. Hazırda İsraildə 100 min nəfərə yaxın Azərbaycandan köçmüş yəhudi icması var. Bu kifayət qədər böyük rəqəmdir. Bu icmada təmsil olunanlar İsrailin hər yerində azərbaycançılıq təbliğatı aparırlar. Onlar ermənilərin törətdiyi Xocalı soyqırımından tutmuş bütün erməni vandalizmini dünyaya çatdıraraq Azərbaycan naminə fəaliyyət həyata keçirirlər. 2020-ci ilin Tovuz döyüşləri və 44 günlük müharibə zamanı İsraildəki Azərbaycandan köç etmiş yəhudilər gecə-gündüz Azərbaycana və Azərbaycan Ordusuna dəstək oldular, ermənilər əleyhinə aksiyalar keçirtdilər. Yəhudilər yalan üzərində qurulan erməni təbliğatına qarşı mübarizəni əslində dünyanın hər yerində aparırdılar və bu istiqamətdə məqsədyönlü fəaliyyət hazırda da davam etdirilir".

### Azərbaycana münasibətdə İranın və İsrailin fərqi

İsrail dövlətinin və cəmiyyətinin ölkəmizə xoş münasibəti qonşu İranla müqayisədə daha qabarıq şəkildə nəzərə çarpır. İranın siyasi rejimi Ermənistanın 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamasına susqunluq nümayiş etdirməklə yanaşı, həm də bu ölkəyə hərtərfli dəstək göstərdi. Məhz İrandan gələn bu dəstək sayəsində işğalçı dövlət ayaq üstə qaldı. İran postmüharibə mərhələsində də sülhyaratma prosesinə əngəllər törədən Ermənistana havadarlıq etmək siyasətindən əl çəkmir. Bir qədər bundan əvvəl Qafanda tələm-tələsik İranın konsulluğu açıldı, Tehranla İrəvan qardaşlaşdı. Mollakratiya Zəngəzur dəhlizinin açılmasını sərhədlərin dəyişdirilməsi anlamında qəbul edərək bunu "qırmızı xətt" kimi dəyərləndirir. "İranın bir çox şəhər və qəsəbələrində qondarma və uydurma erməni soyqırımını əbədiləşdirmək üçün abidələr ucaldılıb. Amma Xocalı soyqırımına dair İranda heç bir abidə yoxdur. İşğal dövründə İran heç vaxt Azərbaycan xalqı və dövləti ilə həmrəylik nümayişi edilməyib. Bütün bunların əksinə olaraq, İsrail hökuməti və parlamenti erməni soyqırımı layihəsini qətiyyətlə rədd edərək Azərbaycan Türkiyə və bütün Türk xalqları ilə həmrəylik nümayiş etdirir. Xocalı soyqırımının günahsız qurbanları da hər il İsraildə anılır və erməni vəhşiliyi dilə gətirilir. İsrail, Azərbaycan və Türkiyə dostluğu regional və qlobal təhlükəsizliyə bir töhfədir", - deyə müsahibimiz bildirib.

### Dostluq, müttəfiqlik davam edəcək

M.Məmmədov bildirib ki, bu gün Azərbaycan və İsrail siyasi, iqtisadi, hərbi və təhlükəsizlik sahəsində ən etibarlı müttəfiqdirlər. Hazırda İsrailin enerji tələbatının çox hissəsini Azərbaycan ödəyir. Azərbaycanın hərbi sahədəki ehtiyacının isə əhəmiyyətli hissəsini İsrail təmin edir. İsraildə Azərbaycanın Səfirliyinin açılması bu əlaqələrin daha da möhkəmlənməsinə və daha da dərinləşməsinə şərait yaradacaq. Səfirliyin fəaliyyətə başlaması iki ölkə arasındakı dostluğu və müttəfiqliyi, hərbi və strateji əməkdaşlığı daha da möhkəmləndirəcək. Azərbaycan və İsrailin münasibətlərinin daha da möhkəmlənməsi bütövlükdə bölgənin təhlükəsizliyinə mühüm töhfədir. Onun sözlərinə görə, Təl-Əvivdə Azərbaycan səfirliyinin fəaliyyətə başlaması ikitərəfli əlaqələrdə yeni mühüm səhifə açacaq və hər iki ölkənin siyasi və təhlükəsizlik maraqlarına xidmət edəcək.

Səfirliyin açılmasını tarixi zərurət kimi dəyərləndirən müsahibimiz bildirib ki, dostluq, müttəfiqlik münasibətləri bundan sonra daha yüksək və dinamik şəkildə davam edəcək. "Azərbaycan və İsrail dövlətlərinin rəhbərləri iki ölkənin daha da yaxınlaşmasını hədəfləyən qərarlar verərkən hər iki ölkənin cəmiyyətlərinin istəyinə əsaslanırlar. Xalqlarımızın münasibəti maddi maraqlar üzərində yox, səmimi dostluq və qardaşlıq üzərində qurulub. Yəhudi xalqı tarixən olduğu kim bundan sonra da Azərbaycan xalqının və dövlətinin yanında olacaq. Hər hansı bir kənar düşmən qüvvə xalqlarımızın bu dostluğunu və qardaşlığını poza bilməz", - deyə M.Məmmədov əlavə edib.

***Mübariz FEYİZLİ***

# Erməni KİV-i öz xalqını "it" adlandırdı

**"Hraparak": "Bəlkə bizim ictimaiyyət də hürməyə son qoymalı və sözlərdən əmələ keçməlidir?"**




**HAŞİYƏ+FOTOFAKT**

Ermənistanda dərc edilən və əsasən, mövcud Paşinyan iqtidarına müxalif olan "Hraparak" qəzetində qeyri-adi məqalə çıxıb. Əsasən, hakimiyyəti Qarabağın "verilməsində" ittiham edən və ölkənin ən tanınmış qəzeti hesab edilən nəşrin martın 27-də işıq üzü görən məqaləsində erməni ictimaiyyəti təhqir hədəfinə çevrilib. Daha dəqiq desək, hakimiyyətin xalqın tələblərinə cavab vermədiyini qeyd edən "Hraparak" Paşinyan iqtidarının xalqı it yerinə qoyduğunu yazıb.

### Erməni qəzeti erməni cəmiyyətinə xitabən: "Hürən itlər, adətən, dişləmirlər"

Lakin diqqətçəkən məqam budur ki, erməni qəzeti ilk olaraq iqtidarın xalqı təhqir etdiyini yazsa da, sonradan özü də erməni ictimai rəyini təhqirə məruz qoyub. "...Hürən itlər isə, adətən, dişləmirlər. Bunu hakimiyyətdəkilər də bilirlər. Bəlkə bizim ictimaiyyət də hürməyə son qoymalı və sözlərdən əmələ keçməlidir?", deyə "Hraparak" sual ünvanlayıb.

Göründüyü kimi, qeyd edilən məqalədə istər dolayı, istərsə də birbaşa təhqir vasitəsi mövcuddur və həmin təhqir erməni xalqının "itə" bənzədilməsi ilə əksini tapıb. Amma bu yerdə ağıla gələn digər məsələ də düşündürücüdür.

### Vaxtilə "İtiqovan" ifadəsi xətirlərinə dəymişdi

Misal üçün, İkinci Qarabağ müharibəsi dövründə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev erməni işğalçılarının Qarabağdan it kimi qovulduqlarını bəyan etmişdi. Hətta ölkə başçımızın bu ifadəsi dillər əzbərinə çevrilmiş, bu adda rəsmi zərbə PUA-larımız da istehsal olunmuşdu. Həmin vaxt bu ifadə işğalçıların, necə deyərlər, xətirlərinə dəymişdi. Artıq bu ifadənin üzərindən kifayət qədər zaman ötüb. Görünür, özləri də artıq Azərbaycan Prezidentinin dillərdə əzbərə çevrilən sözləri ilə razıdırlar.

***Rövşən RƏSULOV***

# "Nar" ardıcıl 4 ildir, Müştəri Loyallığı İndeksində liderdir




2022-ci ilin yekun nəticələrinə əsasən, yerli telekommunikasiya bazarında mobil operator "Nar" Müştəri Loyallığı İndeksinə (NPS – Net Promoter Score) görə ölkənin lider mobil operatorudur. Artıq ardıcıl dördüncü ildir ki, "Nar" Müştəri Loyallığı İndeksində rabitə bazarında ən yüksək göstəriciyə nail olur. Respondentlər ən çox mobil operatorun sərfəli qiymət qarşılığında təqdim etdiyi keyfiyyətli xidmətdən razı qalıblar.

Bu, mobil operatorun tariflərinin statistikasında öz əksini tapıb; "Cavannar 6" və "Cavannar 9" tariflərinə qoşulanların sayı müvafiq olaraq 135% və 85% təşkil edib, "Full" paketlərində isə ümumilikdə 13% artım olub. Daha üstün müştəri xidmətləri göstərmək üçün ötən il 20 "Nar" mərkəzi və diler dükanlarını yenilənmiş, eləcə də, 164 yeni 4G baza stansiyası ilə şəbəkə əhatəsi daha da gücləndirilib. "Nar" şəbəkəsində 4G istifadəçilərinin sayı da 7,6% artıb.

"Nar" 2022-ci ildə müştərilərin heç yana getmədən nömrə əldə etməsi üçün ilk dəfə üztanıma texnologiyası ilə eSIM xidməti təqdim etdi. Abunəçilərin balanslarına nəzarət etmələri üçün "Nar+" özünəxidmət tətbiqi təqdim edildi. Bundan başqa, ötən ildən etibarən "Nar", ingilis dili öyrənmək istəyən abunəçilərinə "LingoKids" və "FluentWorlds" kimi öyrədici tətbiqləri ilk ay pulsuz olmaqla, 70% endirimlə təqdim edir.

Mobil operatorun bütün məhsul və kampaniyaları haqqında məlumatları nar.az veb saytından və "Nar"ın sosial media səhifələrindən öyrənə bilərsiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Qərbi Azərbaycan: Qayıdış Konsepsiyası ilə Böyük Qayıdışa doğru...

***İlham Əliyev: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var"***



Tarixi mənbələr göstərir ki, Qərbi Azərbaycanda vaxtilə ermənilər yaşamamış, daşnak quldurlar öz havadarlarının dəstəyi ilə bu yerlərə əsasən Türkiyə, İran və digər dövlətlərdən axışıb gəlmiş, onlar məqam düşdükcə, buradakı azərbaycanlıları öz ata-baba yurdlarından sıxışdırıb çıxarmışlar. Lakin zaman hər bir dərdin əlacı olduğu kimi, yurduna, el-obasına həsrət insanların da dərdinin ilacı oldu. Budur, o zaman yetişmişdir. İllərlə arxalı köpəklərin soydaşlarımızın başına açdığı oyunların cəzası






verilir. Tarix erməni nankorlarının bütün çirkin niyyətlərini açıb ortaya qoymaqla onların dünyada tanınmasına şərait yaradır. Birləşmiş Millətlər Təşkilatı katibliyinin Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayması dediklərimizi təsdiqləyən amildir. Bu, onun göstəricisidir ki, adıçəkilən mötəbər qurum artıq Ermənistanın hiylələr ermənilərinə inanmır, həmin ərazilərin Azərbaycanın qədim yurdları olduğunu təsdiqləyir və vaxtilə oradan zorla qovulan soydaşlarımızın doğma dədə-baba torpaqlarına qayıtmalarını dəstəkləyir.

## Sülh şəraitində, təhlükəsiz və ləyaqətli şəkildə

Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtma hüququnun təmin edilməsi, qayıdışdan sonra onların fərdi və kollektiv hüquqlarının, o cümlədən, mülkiyyət hüquqlarının, mədəni-tarixi irsinin bərpası və qorunması məsələlərini əhatə edən Qayıdış Konsepsiyası BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, çin, ərəb və ispan) adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb.

Qayıdış Konsepsiyasını nəzərdən keçirərkən Qərbi azərbaycanlıların əzəli torpaqlarımıza sülh şəraitində, təhlükəsiz və ləyaqətli şəkildə qayıtması məsələsi Birinci Vətən Müharibəsi zamanı Qarabağdan zorla qovulan və 30 illik bir dövrdə məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalan soydaşlarımızı canlandırır gözlər önündə. Çünki onların da əzəli torpaqlarımıza sülh yolu ilə qayıtması üçün dövlətimizin başçısı uzun illər danışıqlar apardı. Dünyanın aparıcı ölkələrinin ən yüksək tribunalarından bununla bağlı çağırışlar etdi. Lakin səsimiz eşidilmədi. Ermənilərin 30 il torpaqlarımızı işğal altında saxlamasına, bütün tarixi və mədəni abidələrimizi, minlərlə tikililəri, maddi və mənəvi dəyərlərimizi məhv etməsinə göz yumdular. Hansı ki, həmin torpaqlar da Qərbi Azərbaycan torpaqları kimi zaman-zaman əvvəlcədən hazırlanmış planların qurbanı olmuşdu. O torpaqlardan zorla çıxarılan insanların taleyi də Qərbi azərbaycanlıların taleyi ilə eyni olmuşdu. Soydaşlarımız illərlə əzab-əziyyət içərisində yaşamış, sonralar sosial şəraitləri yaxşılaşdırılsa da, yurd həsrəti bir an da onları tərk etməmiş, minlərlə insan qəlbində nisgillə, hicranla dünyasını dəyişmişdir.

Uzun illər evindən-eşiyindən didərgin düşən insanlar yaşadığı rayon, şəhər və kəndlərin adları çəkiləndə göz yaşlarını saxlaya bilmirdi, o yurdlarda keçirdiyi günlərdən ürəyindəki nisgillə səsləri titrəyə-titrəyə danışırdılar. Onları 30 ildə yaşadan yalnız xatirələr idi. O şirin xatirələrlə bir gün yenidən ocaqlarına qayıtmağın xəyallarını qururdular. O xəyalların isə bir gün reallaşacağı sözsüz idi.

Təhlil



2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən İkinci Vətən Müharibəsi minlərlə soydaşımızın arzusunu reallaşdırdı. Sülh yolu ilə həll olunmayan Qarabağ məsələsi hərb yolu ilə həll olundu. Belə ki, 30 illik danışıqlar fayda verməyəndə, dünya susanda ölkəmizin rəhbəri hərb yolunu seçdi. Çünki o torpaqlar bizim tarixi torpaqlarımız idi və onların bir qarışı belə erməni tapdağı altında qala bilməzdi. Beləliklə də müharibə böyük itkilərlə, lakin Zəfərlə bitdi. Qarabağ 30 illik ayrılıqdan sonra anası Azərbaycana qovuşdu. Dövlətimizin başçısının göstərişi ilə dərhal işğaldan azad edilən torpaqlarda quruculuq, bərpa işlərinə başlanıldı. Başlanıldı ki, soydaşlarımız öz evlərinə tez bir zamanda qayıda bilsinlər. Ötən iki ildə Qarabağda həyata keçirilən işlərin hər biri, tikilən-qurulan, yaradılanlar bu Böyük Qayıdışı şərtləndirən amillərdir. Artıq Böyük Qayıdış başlanmışdır və mərhələli şəkildə davam etdirilir.

Qərbi azərbaycanlıların yaşadığı ərazilər də bizim əzəli torpaqlarımız olduğu üçün onların özlərinin, övladlarının, nəvə-nəticələrinin o torpaqlara qayıtması tarixi ədalətdir. Bu ədaləti daim ört-basdır etmək istəyən Ermənistana isə BMT-nin addımı tutarlı cavab oldu.

## Ermənistan hökuməti Qərbi Azərbaycan mövzusunu təhrifetmə imkanlarından məhrum oldu

Bəli, qeyd edildiyi kimi, Qayıdış Konsepsiyasının BMT-nin əsas orqanlarının sənədləri kimi yayılması Qərbi azərbaycanlıların sülh yolu ilə öz doğma torpaqlarına qayıtması yolunda böyük uğurdur. Sülhpərvər və tamamilə beynəlxalq hüquqa uyğun olan konsepsiyanın BMT-də rəsmi sənəd kimi yayılması Ermənistan hökumətinin Qərbi Azərbaycan mövzusunu təhrif etməsi imkanlarını daha da azaldır, bu ölkəni bir növ İcma ilə danışıqlara başlamağa çağırır və bu mövzuda beynəlxalq prosesin başlanmasını təşviq edir.

Bütün bunların fonunda ermənilərin kimliyindən söhbət açmamaq mümkünsüzdür. Çünki tarixin hansı səhifəsini çevirsək, ermənilərin zaman-zaman Azərbaycan torpaqlarına yerləşdirilməsinin və yerləşmələrinin şahidi olarıq. Haradan gəldikləri, əsillərinin kim olduğu məlum olmayan ermənilər sanki bir ovuc "yaranmış" kimi dünyaya səpələnmiş, sonra bir-birilərinin qoxusuna bir yerə toplaşaraq görmüşlər ki, sağları bir xalq, solları bir millət, bu qənaətə gəlmişlər ki, nə edək, necə edək ki, bizim də bir qarış torpağımız olsun. Beləliklə də başlamışlar fəaliyyətə. Düşünmüşlər ki, bunun yalnız bir yolu var: kiminsə kölgəsinə sığınmaq, yazıq görkəm almaq və yaltaqlıq etmək. Bu bir ovuc "yaranmış" tənbəllik etmədən bu üç əsas amili həyata keçirməyə başlamışdır. Bəli, erməni adlı "yaranmış" yaltaqlıq, hiyləgərlik, nankor xislətlə ərazi sahibi olmuş, bundan sonra isə "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüşlər. Bu xülyadan ən çox əziyyət çəkən isə azərbaycanlılar olmuşlar. Tarixin ayrı-ayrı dövrlərinə nəzər salmaqla bunu açıq şəkildə görmək olur.

Çox təəssüf ki, onlara yazığı gələn Azərbaycan xalqı, yaltaqlıqlarından istifadə etməklə xislətlərində olanları həyata keçirənlər isə başqaları olmuşdur. Bu bir ovuc olanlar nəticəni gördükcə bir qədər də irəliləmiş, ordan bir parça, burdan bir parça qoparmaqla torpaq sahibi olmuşlar. Özlərini miskin görkəmə salmaqla və yaltaqlıqla, satqınlıqla başqasının olan bir parça torpaqlarını genişləndirmək üçün əl atmadıqları vasitə qalmamışdır.

Bir daha çox təəssüflər olsun ki, ermənilər xalqımızın tale yazısı olub. Onlara bizimlə qonşuluqda yaşamaq şansı verilib. Beləliklə başlayıblar bizim tarixi torpaqlarımız hesabına öz ərazilərini genişləndiməyə. Özlərinə yer edəndən sonra isə torpaqlarımızda soyqırımlar, təxribatlar törətməklə soydaşlarımızı qətlə yetirmiş, sağ qalanları pərən-pərən salmışlar. Yaltaqlıq və riyakarlıqlarından istifadə edib himayədarlarına çevrilənlər onları zaman-zaman Azərbaycan torpaqlarına yerləşdirməyi qarşılarına məqsəd qoymuşdur. Çünki bu çox mənada onlara da sərf edirdi.

Tarixən Rusiyanın müəyyən dairələrinin əlində türk xalqlarına qarşı terrorçuluq alətinə çevrilən ermənilər 1948-53-cü illərdə qədim Oğuz ellərində - bu gün Ermənistan adlanan ərazidə daha bir məkrli siyasətlərini reallığa çevirdilər. Onlar dünyaya səs saldılar ki, guya əzab-əziyyət içərisində yaşayırlar, əkib-becərməyə meyilli olsalar da, bu ərazilərdə azərbaycanlılar yaşayır. Çıxış yolu isə ondadır ki, müsəlmanlar öz əzəli torpaqlarından köçürülsün, qonşu Azərbaycan Respublikasında onlara yer ayrılsın. Ermənilər azərbaycanlıların Qərbi Azərbaycandan köçürülməsi üçün, ilk öncə Moskvaya yaltaqlanmağa başladılar. Daha sonra isə xaricdəki erməni diasporunun, xüsusilə Anastas Mikoyanın dəstəyi ilə Stalini ələ aldılar. Stalin belə bir göstərişə imza atdı ki, müxtəlif ölkələrdən Ermənistan ərazisinə köçürülən 500 minə yaxın erməni müxtəlif şəhər və rayonlarda yerləşdirilsin, azərbaycanlılar isə öz ərazilərindən çıxarılsın, Azərbaycan Respublikasının Kür-Araz ovalığında yerləşdirilsin ki, onlar burada kənd təsərrüfatını inkişaf etdirsinlər.

Beləliklə, Ermənistandakı azərbaycanlıların başının üstünü 1919-cu ildəki kimi yenidən qara buludlar aldı, xalqa arxa, dayaq duran torpaqlarından kütləvi köç belə reallaşdı.

Şükürlər olsun ki, dövlətimizin başçısının beynəlxalq aləmdə apardığı böyükmiqyaslı işlər öz nəticəsini verir. Artıq əksər dünya ölkələri bizim haqlı olduğumuzu təsdiq edir. Təsdiq etməyənlər isə ədalətin kimin tərəfində olduğunu yaxşı bilsələr də, erməni xisləti ilə eyni xislətləri bunu hələlik səsləndirməyə imkan vermir. Lakin tarix və zaman Azərbaycan xalqının lehinə işləyir. Elə Birləşmiş Millətlər Təşkilatının Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayması ermənilərə və onlar xislətdə olanlara tutarlı cavabdır. Bu sənəd Ermənistan hökumətini Qərbi Azərbaycan mövzusunu təhrifetmə imkanlarından birdəfəlik məhrum edir. Ermənistan hökuməti dərindən düşünməklə Azərbaycanın həm siyasət, həm də hərb meydanında atdığı uğurlu və ədalətli addımları qarşısında kim olduğunu dərk edər və gec də olsa ədalətə qayıdar. Təbii ki, bunu bacara bilərsə...

## Bizi Qarabağa qaytaran Lider Qərbi Azərbaycana da qaytaracaq

Qarabağ və Qərbi Azərbaycan məsələsi dövlətimizin başçısının fəaliyyət proqramının başlıca prioriteti olub. Bunu ötən 20 ildə hər zaman görmüşük. Qarabağ məsələsi öz həllini tapandan, torpaqlarımız Ali Baş Komandanımızın rəhbərliyi ilə işğaldan azad ediləndən, əzəli ərazilərimizdə böyük bərpa işləri başlanandan sonra Qərbi Azərbaycan məsələsinə qayıdılması dediklərimizi təsdiq edən amillərdir.

Prezident cənab İlham Əliyev ötən il dekabrın 24-də-doğum günündə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərkən bu məsələyə bir daha nəzər salmışdır : Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni, görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.

Bir tərəfdən, o vəhşilikləri, dağıntıları, qanunsuz məskunlaşmanı etiraf etməyə məcbur oldular, digər tərəfdən yenə də balanslı yanaşaraq işğalçı ilə işğala məruz qalanı necə deyərlər, bir müstəviyə qoydular. Ona görə Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə çatdırılmalıdır. Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.

"Bütövlükdə XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir"-, deyən dövlətimizin başçısı vurğulamışdır: Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik.



Bəli, bu çıxışdan sonra bizi Qarabağa qaytaran Liderimizin bir gün Qərbi Azərbaycana da qaytaracağına bir daha əmin olduq. Dövlətimizin başçısının Qərbi Azərbaycan İcmasına verdiyi tövsiyələr bu gün özünü göstərməkdədir. Öncə Qərbi Azərbaycan İcmasının yanvar ayında beynəlxalq ictimaiyyətə müraciəti, 26 yanvar 2023-cü il tarixdə qəbul etdiyi Qayıdış Konsepsiyası və həmin Konsepsiyanın BMT katibliyi tərəfindən rəsmi sənəd kimi yayılması qısa zamanda Qərbi Azərbaycan məsələsi istiqamətində görülən işlərin bəhrələridir və bu bəhrələr bizi hər gün Qərbi Azərbaycana yaxınlaşdırır.

Əminik ki, bizi Qarabağa qaytaran Liderimiz yaxın gələcəkdə Qərbi Azərbaycana da qaytaracaq. Çünki bizim Liderimiz bütün dünyaya bu torpaqların tarixi Azərbaycan torpaqları olduğunu sübut edən Liderdir.

**_Mətanət Məmmədova_**

*Araşdırmalar göstərir ki, saqqallı kişilər kütlənin diqqətini daha çox cəlb edir. Bəs, kişilər sırf hormonlara və kişi olduqlarına görə saqqal saxlayırlar?. SİA mövzu ilə bağlı araşdırma aparıb.*

# Gənclərin saqqal sevdası nədən qaynaqlanır?

### Kişilik hormonu

Saqqal elmi olaraq kişilik və hormonların (Testosteron) birbaşa nəticəsidir. Ona görə də kişilər saqqal istəməsələr də, təbii olaraq saqqala sahibdir. Həmçinin əksər kişiləf saqqallarının seyrək və ya zəif olmasını istəmirlər. Bir çoxlarına görə saqqal kişiliyi və kişi cinsini simvollaşdırır. Dünyadakı bütün köhnə və yeni mədəniyyətlərdə saqqal kişiliklə əlaqələndirilmişdir.

### Tərz

Onlara görə saqqal şəxsi ifadə formasıdır və tərzi əks etdirir. Moda və üslub anlayışlarından başqa, saqqal bir çox fərqli sahədə müxtəlif məna və məqsədləri ehtiva edir. Məsələn: kişilər dini və ya siyasi imic yaratmaq, müəyyən qrupa və ya cəmiyyətə mənsubluq hissini təmin etmək, orada iştirak etmək üçün saqqal saxlayırlar.

Bundan başqa, düşünülür ki, saqqal kişini cazibədar göstərir. Bunu biz demirik. Bir çox sosial və elmi araşdırmalara görə kişilərin saqqallarla daha cazibədar olduğu qənaəti doğrudur. Bir çox qadınlar da belə düşünür. Kişilər də saqqal uzadanda özünü daha cazibədar hiss edir. Xülasə kişilər cazibədar görünmək üçün daha çox saqqal istəyirlər.

### Aksessuar və bəzək

Başqa bir etibarlı nəzəriyyəyə görə, kişilər saqqaldan aksessuar və bəzək kimi istifadə edir. Bu, onun cəlbedicilik təsirinin bir nümunəsidir. Saqqalın diqqət çəkən bir şey olduğu həqiqətdir. Xülasə, kişilər bir çox fərqli səbəblə digər kişilərdən fərqlənmək üçün daha çox saqqal saxlamaq istəyirlər.

### Xarakter

Bəzilərinə görə saqqal həm də xarakteri əks etdirir. Saqqallı kişilər saqqal vasitəsilə digər kişilər arasında daha aqressiv, dominant və güclü görünərək onları qorxutmağa meylli ola bilərlər. Qəribə səslənsə də, tarixi mənbələrdə bir çox döyüşçü və əsgərin bu səbəbdən saqqal saxladığı söylənilir.

### Makiyaj

Saqqal formasız görüntünü yumşaltmaq və özünə inamsızlığı aradan qaldırmaq üçün bir növ makiyaj kimi istifadə edilir. Hər kişi saqqalsız yaraşıqlı görünə bilməz, amma bəziləri saqqal uzandıqca saqqalsızdan daha gözəl üsluba sahib ola bilirlər. Bu mənada "Saqqal kişilərin makiyajıdır" fikri bir çox hallarda doğrudur.

### Sağlamlıq

Saqqalın sağlamlığa faydalarını kişilər bilirlər. Məsələn: saqqal dərinin qocalmasını ləngidir, dərini günəşdən, soyuqdan, küləkdən və xarici faktorlardan qoruyur. Dəri xərçənginin qarşısını alır. Dərini saqqal, bakteriya və göbələklərin yaratdığı infeksiyalara qarşı qoruyur. Saqqallı kişilərin daha az xəstələndiyi də araşdırmalarla təsdiqlənir. Saqqal soyuqdəyməyə qarşı qoruyur. Allergik xəstəliklər və astma kimi xroniki xəstəliklərdən qoruyur və immuniteti gücləndirir.





### Dində saqqal məsələsinə münasibət necədir?

İslamda saç, saqqal və bığ necə olmalıdır? Saqqal kəsmək haramdırmı?

Dində saqqalını qırxan kişilər qadınlara bənzəyir. Kişilərin qadınlara bənzəməsi də haramdır. Lakin saqqal kəsməyin haram olduğunu deyən bəzi alimlər saqqal uzanandan sonra kəsməyin haram olduğunu nəzərdə tutublar. Əks halda saqqal uzatmadan qırxmaq haram deyil.

### Peyğəmbər saqqalını qırxırdımı?

Bir çimdikdən çox kəsmək sünnətdir və hətta lazımdır. Çünki Peyğəmbər (s) saqqalının bir telindən çoxunu kəsmiş və saqqalı həm enindən, həm də boyundan kəsərək səliqəli formada saxlamışdır.

### Kişinin üzünə ülgüc vurması haramdır?

Kişinin saqqalını ülgüclə qırxması 4 məzhəbin fiqhində haramdır. Ancaq işinə görə təraş etməli olsa, burada məsələ bir qədər fərqlidir.

### Bığ uzatmaq olar?

Saqqalsız bığ uzatmağın heç bir zərəri yoxdur. Həm saqqal, həm də bığ uzatmaq sünnətdir. Yalnız bığ saxlayan mömin kişi də bu sünnələrdən birinə əməl edər.

Dində saqqala forma vermək olar?

Saqqala müəyyən forma verilə bilər. Nə qədər ki, bu forma başqalarının saqqalına bənzəmirsə, mümkündür.

### Saqqal vergisi nədir?

Rus çarı I Pyotr (1672- 1725) dövründə saqqal vergisi və palıd taxtasından tabut üçün vergi yığılırdı. Keşişlərdən, monaxlardan və kəndlilərdən başqa bütün əhali ya saqqalını qırxmalı, ya da vergi verməliydi. Kəndlilər şəhərə daxil olduqda və ya çıxdıqda saqqal rüsumu ödəyirdilər.

Yoxsulların ildə cəmi 2 rubl qarşılığında saqqal uzatmasına icazə verilirdi. Varlı vətəndaşlar 100 rubl ödəməli idilər. Vergidən yayınanların polis tərəfindən zorla saqqalları qırxılırdı. Vergi ödəyicilərinə isə mis sikkələr verildi. Bu mis sikkələr saqqallarına vergi verdiklərini sübut edirdi.

Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev: "Saqqal, bığ, yəni üzə tükün Allah tərəfindən bir nemət olaraq verilməsində bir əlamət var. Bu kişilərə xasdır. Ümumilikdə isə Allah bizə nə verirsə, bu bir nemətdir. Kişi öz əlamətləri ilə seçilir. Xanımlara xüsusi gözəllik nəsib olunub. Kişilərdə isə bu bir qədər fərqlidir. Bu fərqlərdən biri də Allah tərəfindən kişilərə bəxş olunan üzdə tükün çıxmasıdır. Qadınlarda hormonal pozğunluqlar baş verən zaman istisna hal ola bilir. Amma təbii və anatomik olaraq kişilərdə bu olmalıdır. Əgər bir kişidə saqqal yoxdursa, bu kişilik hormonlarının pozulması deməkdir.

İslam dinində insanın qüdrəti və imkanı varsa üzündə müəyyən qədər saqqalının olması savabdır. Hətta imkan şəraitində bəzi alimlər buna təkid edir və deyirlər ki, dini yönümdən saqqal vacibata daxil olur. İnsanın tam şərait və imkanı varsa, üzündə saqqalı olsa yaxşıdır.

Tibbi mütəxəssislər də bunun izahını belə verirlər ki, üzün ülgüclə qırxılması üz dərisinin kəsilməsinə və üzdə bəzi çapıqların olmasına gətirib çıxarır. Ona görə də İslamda kişilərin üzünün müəyyən qədər saqqallı olması savab əməl kimi qəbul olunur. Yəni, kənardan baxan adam digərinin üzündə saqqal olduğunu bilsin.

Bəzən olur ki, kişi elə bir işdə işləyir ki, yaxud elə bir şəraitdədir ki, onun saqqal saxlaması mümkün deyil. Lakin bir çox sahələrdə fəaliyyət göstərən kişilər də saqqal saxlaya bilir. Bu ya dəb, ya da adət kimidir. İndi görürsən ki, həkim də, müəllim də, hərbiçi də saqqal saxlayır. İnsanlar normal şüurla bunu qəbul edir ki, kişinin üzündə saqqal ola bilər.

Lakin bığın çox uzadılması dinimizdə tələb olunmur. Üzdə saqqalla bığ eyni həcmdə olsa kifayətdir. Bığı saqqaldan çox uzatmaq dəb üçün edilir. Din bunu qəbul etmir. Dində moda üçün saqqal saxlamağın savabı yoxdur.

Saqqalı da, bığı da elə saxlamaq lazımdır ki, o ətrafda qınağa çevrilməsin. Məsələn, insanı vahiməli, səliqəsiz və kobud göstərməsin. İslam paklıq və təmizlikdir. İslam insnaları gigyenik qaydalara dəvət edir. Bir daha yekun olaraq qeyd edirəm ki, İslamda imkanı olan şəxslərin saqqal saxlaması tələb olunur. İslam dinində kişinin saqqal olunması müstəhəbdir. Dində saqqal saxlayana Allah savab verir".

Vəkil Turan Abdullazadə: "Bir müddət əvvəl belə bir xəbər yayılmışdı ki, Cənubi Koreyada "Ədəbsiz geyimlər haqqında" qanun qəbul olunub. Bu qanuna əsasən, qısa ətək və digər açıq-saçıq geyimə görə Koreya polisi qadınları 45 dollar məbləğində cərimə edə bilər. Fransada Luvr muzeyinə çimərlik, sinəsi və ayaqları açıq olan insanları buraxmaq qadağandır. Dünya praktikasında həm dövlət orqanlarında, həm kommersiya qurumlarında "dress kod" deyilən geyim qaydaları mövcuddur. Dress-kod (ing. dress code) — müəyyən bir təşkilatda, müəssisədə işləyərkən və ya tədbirdə iştirak edərkən tələb olunan vahid geyim forması deməkdir.

Türkiyədə də bu barədə xüsusi qanun var. Ancaq Azərbaycanda qanunvericilik bu məsələni tənzimləmir və bu barədə hər hansı qanun qəbul edilməmişdir. Lakin hər bir şirkət və ya dövlət orqanı sərbəst iradə ifadəsi əsasında öz işçiləri üçün müəyyən geyim qaydaları müəyyən edə bilər və əgər işçilər tərəfindən hamılıqla qəbul olunursa işəgötürən dress kod qaydalarını öz işçilərinə münasibətdə tətbiq edə bilər.

Lakin saqqal saxlamağa və geyimə görə işçini işdən azad etmək qanunsuzdur. Saqqala və geyimə görə işçini təqib etmək və ya ona təzyiq etmək qadağandır. Saqqal saxlayıb-saxlamamaq işçinin subyektiv hüququdur. Lakin işçi də hamılıqla qəbul olunmuş birgə yaşayış qaydalarına hörmət etməli və cəmiyyət tərəfindən birmənalı qəbul olunmayan vulqar geyim tərzi və görünüş üslubundan çəkinməlidir.

Lakin Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqalədə Hallar Nazirliyi və digər ciddi rejimli dövlət orqanlarında vahid geyim forması, üzün təraş edilməsi məcburi ola bilər. Bu qaydaların pozulması yolverilməzdir. Belə ki, bu cür orqanların daxili xidmət nizamnaməsi və əsasnaməsi olur. İşçilərin davranış qaydaları həmin nizamnamə və əsasnamələrlə tənzimlənir.

Hesab edirəm ki, normal saqqal saxlayan və vahid geyim qaydası olmayan müəssisələrdə vulqar olmayan istənilən geyimin geyilməsinin işəgötürən tərəfindən qadağan olunması azadlığın məhdudlaşdırılması və insan hüquqlarının kobud pozuntusudur. Fikrimcə qanunvericilikdə nəzərdə tutulmamışdırsa işəgötürənin başqalarına nə geyinməli olduqlarını diktə etmək hüququ yoxdur. Ancaq bütün bunların fonunda nəzərdə alınmalıdır ki, vətəndaşlar da öz növbəsində cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərdən çəkinməli və digər şəxslərdə ikrah hissi oyatmamalıdırlar".

***Ayşən Vəli***

ARAŞDIRMA

# 31 mart - Azərbaycanlıların Soyqırımı Günü və 44 Günlük ...

*Prezident İlham Əliyev: "Tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar"*



Muxtar Nağıyev,
YAP Səbail rayon təşkilatının sədri

**Hər bir millətin tarixində faciələr, qırğınlarla dolu səhifələr mövcuddur, lakin xalq o zaman gələcəyə inamla irəliləyir, o zaman qüdrətli, güclü olur ki, ulu öndər Heydər Əliyevin də qeyd etdiyi kimi, tarixi hadisələrə biganə yanaşmasın, faciələrdən nəticə çıxarmağı bacarsın.Artıq bu gün bütün dünya ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan, Qalib Lider İlham Əliyev tarixi hadisələrə "Dəmir Yumru" siyasəti ilə erməni faşistlərinin və ona dəstəy olanların iç üzünü Vətən müharibəsində bir daha gördü. 44 günlük Vətən müharibəsində Gəncə və Bərdə şəhərlərinə atılan bombalar nəticəsində 54 nəfər həyatını itirdi, 195 nəfər isə yaralandı. Ermənilər dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə etməklə vandal, nasist simalarını bütün dünyaya bir daha nümayiş etdirdilər.**

## Ermənilərin azərbaycanlılara qarşı soyqırımı insanlıq əleyhinə cinayətdir

Ermənilər tarixin müxtəlif dövrlərində xalqımıza qarşı kütləvi qətliamlar törədib, soyqırımı aktları həyata keçiriblər. Bu cinayət əməllərinin miqyasına və nəticələrinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, bu soyqırımı aktları həm beynəlxalq hüquq normaları ilə təsbit olunmuş konvensiyalara əsasən, həm də mənəvi-əxlaqi kodekslərə görə, insanlığa qarşı və bəşəriyyət əleyhinə cinayətdir.Təxminən iki yüz il ərzində ermənilərin öz havadarlarının köməyi ilə "böyük Ermənistan" yaratmaq kimi qondarma ideyanın gerçəkləşdirilməsi yolunda atdıqları addımlar Azərbaycan xalqına qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələnib. XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazidə deyil, Cənubi Azərbaycanda, Borçalıda, Bakı quberniyasında, Şamaxı, Quba, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da zaman-zaman azərbaycanlılara qarşı kütləvi qırğınlar, talanlar, terror və digər zorakılıq aktları həyata keçiriblər. Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84, Nor-Bəyazid qəzasında 7, ümumiyyətlə, 197 kənd dağıdılıb, sakinləri ən vəhşi üsullarla qətlə yetirilib. 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik dəstələri azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar törədiblər.

1918-ci il martın 31 də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda, Daşnaksütyun partiyasının 4 minlik silahlı dəstəsi iştirak edirdi. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edib, uşaqdan böyüyədək hər kəsi qətlə yetiriblər.Həmin dəhşətli günlərin şahidi olmuş Kulner soyadlı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə yazırdı: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirlər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlının cəsədinin qulaqları və burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".





## Bu qanlı faciəyə əsl hüquqi qiymət Ulu Öndər tərəfindən verildi

31 mart soyqırımı ermənilərin öz havadarlarının köməyi ilə iki yüz il ərzində xalqımıza qarşı törədilmiş genosid siyasətinin davamı idi. Bu qanlı faciəyə əsl hüquqi qiymət Ulu Öndər tərəfindən verildi. Məhz ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da "1918-ci il mart soyqırımı haqqında" Fərman imzalayıb. Fərmanda bu hadisələrlə bağlı Milli Məclisin sessiyalarının keçirilməsi, bu sahədə tədqiqat işlərinin aparılması, hər il mart ayının 31-nin milli matəm günü kimi qeyd edilməsi, bu faciənin dünya ictimaiyyətinə çatdırılması kimi konkret vəzifələr qoyulub. Bildirilib ki, bununla da Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşib. Həmin ildən etibarən bütün xalqımız bu tarixi "31 Mart Azərbaycanlıların soyqırımı günü" kimi qeyd edir.

Bununla yanaşı, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən geniş qeyd olundu. Sərəncama əsasən, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilib. Bir sözlə, bu Sərəncam Azərbaycan Prezidentinin dövlətçilik tariximizə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyətinə verdiyi yüksək dəyər, Azərbaycan Respublikasının öz sələfinin hüququ və mənəvi mirasına sədaqətini nümayiş etdirdiyinin reallığıdır.

Bütün bunlar onu deməyə əsas verir ki, faşist ideologiyasına xidmət edən ermənilər Azərbaycan və türk xalqına qarşı hər zaman düşmən mövqedə olublar. Hər zaman saxta faktlar yaradaraq tarixi saxtalaşdırmağa çalışıblar. Prezident İlham Əliyev qeyd etdiyi kimi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən ermənilərin şəbəkələri saxta məlumat yaymaqla məşğuldurlar və olmayan şeyləri reallıq kimi qələmə verirlər. Əlbəttə, hər bir azərbaycanlı düşmənin məkrli siyasətinə qarşı ayıq olmalı, dövlətin atdığı addımların arxasında olmalıdır. Azərbaycan xalqı tarixboyu bir çox faciələrlə üzləşməsinə baxmayaraq, özünün müstəqillik əzmini qoruyub saxlayıb, yenilməz birlik və həmrəylik nümayiş etdirib. Xüsusilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və ordumuzun ətrafında "Dəmir yumruq" kimi birləşən Azərbaycan xalqı 44 gün ərzində gücünün, qüdrətinin nələrə qadir olduğunu düşmənə və bütün dünyaya bir daha nümayiş etdirdi. Artıq bütöv Azərbaycan var və Böyük Qayıdışın astanasındayıq. 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü təmin etməklə yanaşı, tarixi ədaləti də bərpa etdi.Və bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan 31 mart soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Qəhrəman ordumuz düşməni darmadağın edərək bütün şəhidlərimizin, 31 mart soyqırım qurbanlarının qisasını aldı.Ümid edirik ki, özlərini demokratiyanın beşiyi olaraq qəbul edən Qərb dairələri nəhayət bu reallıqlara gözünü açacaq və bəşər tarixinin ən qanlı faciələrindən biri olan 31 Mart Soyqırımına layiqli hüquqi qiyməti verəcəkdir.

Allah soyqırımı qurbanlarının ruhunu şad etsin!



## Hamı dedektiv olub

LALƏ

***Deputat Fazil Mustafanın vurulması xəbərini facebook-da dost siyahımdakı adamlardan ən azı 500-600 nəfəri paylaşıb. Xəbər lentində 1 sutkadır başqa heç nə görünmür. Hamı özünü borclu hesab edir, hamı eyni cümlələri, eyni məlumatı yayımlayır, hamı bir-biri ilə yarışır. Əgər bu məlumata əsaslı rəy vermirsənsə, sübutlu-dəlilli əsaslandırman yoxdursa niyə özünü xəbər saytı, tv kanalı kimi aparmağa məcbur hiss edirsən? Hamı saytları izləyir, son xəbərləri görür, operativ məlumat paylaşan jurnalistlərdən informasiya alır, ən azı saytların sosial şəbəkə kanallarını izləyir, bilir. Nədir bu əsaslı-əsassız xəbər paylaşmaq hərisliyi?***

Virtual dünyanın ən böyük bəlası da məhz budur - özünü hər məsələdə fikir bildirməyə borclu hesab etmək. Ətrafında olanlardan xəbərsiz olması bir çox insanda gərginlik hissinə səbəb olur, bu isə öz növbəsində başqaları ilə münasibətinə təsir edir, hadisələrdən geridə qaldığını, insanların sürətinə yetişə bilmədiyini düşünür. Yuxudan oyanır, görür hamı bir məlumat paylaşıb, o paylaşmayıb. Qıcıqlanır, sözün həqiqi mənasında. Sosial şəbəkədə məlumatının olduğu və ya olmadığı bütün hadisələr barədə fikir bildirmək üçün özünü məsul sayır əksəriyyət.

Çox insanın meyilli olduğu dedi-qodu da beləcə yaranır əslində. Sadəcə, məkan fərqi var. Əvvəllər evlərdən, çayxanalardan, küçə qapılarının önündən ayaq açıb yayılan bu dedi-qodular indi sosial şəbəkələrdə doğulur, ayaq açır və yayılır. Fazil Mustafa məsələsində də bunu müşahidə edirik - hamı sui-qəsdçinin kimliyini, hansı ölkədən sifariş olunduğunu, nəyə görə deputata hücum olunduğunu şərh edir, öz fərziyyələrini yazır, dedektivlik edir, yalan məlumatla kütləni ələ alır.

Dedi-qodunun cazibəsi eyni xəbəri yüz minlərlə adamın fərqli şərhlərlə yayması fonunda daha da artır. Bu da öz növbəsində o deməkdir ki eyni xəbəri hər zəka başqa cür qəbul edir, fərqli analiz edir, çeşidli sayda yayılmasına səbəb olur. DİN-nin rəsmisi hətta açıqlama da verdi ki, sosial şəbəkələrdə əsilsiz məlumatlar paylaşılır, etməyin. Kimə deyirsən? Hadisədən dərhal sonra bir az irəli gedib sifarişçini də tapdı bəziləri.

Hamının hər hansı bir hadisə barədə fikir bildirməsi, mülahizə yürütməsi, şərh verməsi səni də buna təhrik edir, özünü buna borclu hiss edirsən. Daha sonra başqa bir xəbər, sonra digəri, sonra yenisi. Beləliklə günün boş keçmir, hər gün yeni mövzu var, hər gün gündəm dəyişir və sən hər biri haqqında düşünürək zehnini məşğul edirsən. Yuxu yatmırsan, vaxtında yemirsən, günün kompyuter arxasında, əlində telefon, hadisələrə rəy bildirməklə keçir. Bütün bunların fonunda ailənin, çevrənin, öz problemlərinin fərqində olmursan.

Hər problemin həlli üçün öz peşəkarına ehtiyac var. Məlum məsələdə də dövlət təhlükəsizlik orqanları lazım olanı edəcək, deputata niyə hücum edildiyini aşkarlayacaq, ictimaiyyətə məlumat veriləcək. Sakitləşin, dayanın, durun. Gözləyin və sadəcə, öz işinizlə məşğul olun.

# Tehran rejiminin terror siyasəti – bəlucların tökülən qanları



*Bu ölkədə yaşayan azərbaycanlılar, türkmanlar, qaşqay türkləri, kürdlər, bəluclar, eləcə də, rejimə qarşı çıxış edən farslar belə mollakratiya terrorunun aşkar və davamlı qurbanlarına çevrilirlər*

Tehran rejiminin sözdə “İslam Respublikası” adı altında teokratik siyasət yürütməsi hazırkı dövrə qədər on minlərlə insanların qətlləri və vəhşiliklərə uğramaları ilə nəticəsini tapmaqdadır. Xüsusilə, ötən ilin sentyabrından başlayan xalq etirazlarında milli azlıqlara qarşı başladılan repressiyalar, habelə qətllər beynəlxalq aləmə SOS siqnalını verməkdədir. Bu ölkədə yaşayan azərbaycanlılar, türkmanlar, qaşqay türkləri, kürdlər, bəluclar, eləcə də, rejimə qarşı çıxış edən farslar belə mollakratiyanın aşkar qurbanlarına çevrilirlər. Daha bir məqam isə budur ki, Tehran rejimi şiəlik pərdəsi altında özünü “İslam dininin mühafizəkarı” qismində təqdim etməsinə rəğmən, bu dinin digər qollarının sıxışdırılması prosesini ən dəhşətli üsullarla icra etməkdədir. Tehranın ölüm məngənəsinə düşən azsaylı xalqlardan biri də məhz bəluclardır.







### Dəhşət saçan statistika - təkcə 2022-ci ildə İranda 628 bəluc öldürülüb!

Statistik rəqəmlərə müraciət edərkən də həmin dəhşətlər gözlər önünə sərilir. 2021-ci ili istisna etsək, təkcə cari 2022-ci ildə İranda 628 bəlucun qətlə yetirilməsi məlum olub. Üstəlik, repressiyanın bəhanələrindən biri də “narkotiklərin satışı” ittihamları ilə bağlıdır. Əslində etnik təmizləmə siyasətini öndə tutan Tehranın molla rejimi son vaxtlar qiyam və üsyanlarda xüsusi fəallıqları ilə seçilən bəluclara qarşı saxta narkotik ittihamlarını tətbiq edir və bu vasitə ilə onların kütləvi edamlarına səbəblər yaradır. Bu baxımdan, 2022-ci ilin göstəriciləri qorxunc rəqəmlərə söykənir:

182 nəfər bəluc narkotiklərin “satışı və yayılması” ittihamı ilə dar ağacına çıxarılaraq edam edilibər;

167 bəluc isə qəddar Bəsic polis qüvvələri tərəfindən güllələnərək öldürülüb. Onların əksəriyyəti öz haqlarını tələb edərkən, yəni xalq etirazları zamanı hədəfə alınıb;

121 nəfər bəluc isə ötən ilin 20 sentyabrında - Sistan və Bəlucistan vilayətinin Zahedan şəhərində “Qanlı cümə” etirazlarında polisin vəhşiliyi nəticəsində öldürülüb. Bu barədə bəlucların “Halvsh” saytı məlumat yayıb.

### Bəluclu media fəalı Məhəmməd Sabir Malik Rəisi: ““İstənilən yerdə iki nəfərdən çox adamın toplanması həbsə bərabərdir”

Şiə ölkəsi olan İranın bu sünni kəsimi demək olar ki, hər gün molla rejiminin qəddarlığı altında əzilir, onların haqları bütün mənalarda tapdanır və buna baxmayaraq, bəluclar öz əzmkar və qətiyyətli davranışları ilə Tehran rejiminə qarşı öz sözlərini deməkdə davam edirlər. Keçmiş siyasi məhbus və bəluclu media fəalı Məhəmməd Sabir Malik Rəisi ”Twitter” hesabında yazıb ki, hazırda da Zahedanda həbslər artır və hərbi idarəetmə rejimi daha sərt tədbirlərlə xalqın gözünü qorxutmağa davam edir. “İstənilən yerdə iki nəfərdən çox adamın toplanması həbsə bərabərdir”, bəluclu fəal deyə qeyd edib.

O cümlədən, Zahedanın şəhər sakinləri üçün böyük bir həbsxanaya çevrildiyini bildirən fəal ETTELAAT və SEPAH kəşfiyyatının ardıcıl hücumları nəticəsində şəhərin müxtəlif bölgələrində çoxlu bəluc gəncin saxlanılaraq naməlum yerlərə aparıldıqlarını, oğurlandıqlarını da qeyd edir.

### Bu gerçəkliklər də artıq özünü “İslam Respublikası” adlandıran rejimin əslində terror quruluşu olduğunu kifayət qədər sübuta yetirməkdədir

Yeri gəlmişkən, Tehran rejiminin dəhşət saçan əməllərindən biri də insanların oğurlanaraq naməlum səmtlərə aparılmalarıdır. Bununla bağlı iddialar var ki, həmin insanlar ölkənin müxtəlif şəhərlərində gizli fəaliyyət göstərən yeraltı həbsxanalara salınır, onlara qarşı misli görünməmiş qəddarlıqlar törədilir, nəticədə əzablara, işgəncələrə, fiziki və cinsi zorakılıqlar dözməyən insanlar öldürülür, onların izləri itirilir.

Bütün bu kimi faktlardan həm də belə nəticə hasil etmək olar ki, İranın mövcud siyasi-dini quruluşu yalnız öz daxilinə deyil, həm də bəşəriyyətə ciddi təhlükələr yaradır və bu təhlükələrin biri də xarici ölkələrdə gizli fəaliyyət göstərən casus-kəşfiyyatçı şəbəkələrin insanları təqib etmələri və oğurlamalarıdır. Diqqətçəkən faktorlardan biri də məhz bu acı reallıqlara söykənir. Tehran isə Beynəlxalq İnsan Haqları Məhkəməsi də daxil olmaqla digər beynəlxalq qurumların çağırış və tələblərini qulaqardına vurur. Bu gerçəkliklər də artıq özünü “İslam Respublikası” adlandıran rejimin əslində terror quruluşu olduğunu kifayət qədər sübuta yetirməkdədir.

**Rövşən RƏSULOV**

# Zaqatalada gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

**“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.**

2023-cü il martın 29-da YAP Zaqatala rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.





Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Daha sonra “Ümummilli Lider Heydər Əliyev və müasir Azərbaycan gəncliyi” mövzusunda dəyirmi masa keçirilib.



# “Qarabağ Azərbaycandır- sülh müqaviləsi bunun əsasında imzalanmalıdır”



**Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov “Moskva-Baku” portalına müsahibəsində İrəvanın Bakıya qarşı informasiya kampaniyasının arxasında nə dayandığını izah edib. Müsahibəni oxucularımıza təqdim edirik.**

**-İrəvan Azərbaycana qarşı aqressiv informasiya müharibəsi aparır. Müntəzəm olaraq hər şey elə təqdim olunur ki, guya üçtərəfli sazişləri pozan Bakıdır və demək olar ki, bütün məqamlarda. O, guya Azərbaycanın “təcavüzkar” olması, “erməni ərazilərini işğal etməsi” tezisini irəli sürür və üstəlik, “erməni qaçqınlarının öz ata-baba yurdlarına qayıtmasına imkan vermədiyini” iddia edirlər. Bu informasiya kampaniyasının son məqsədi nədir?**

- İrəvanın əsas vəzifəsi Azərbaycanı təcavüzkar ölkə kimi təqdim edərək müxtəlif xarici qüvvələrin- Avropa İttifaqının, ABŞ-ın dəstəyini optimal şəkildə almaqdır, burada Rusiyanı cəlb etmək cəhdi də davam edir. Qarabağın birmənalı olaraq Azərbaycanın ərazisi olduğu ilə bağlı Bakı ilə heç bir şəkildə sülh müqaviləsi imzalamamağa, ABŞ və Fransadan olan müşahidəçilərin Qarabağ zonasına daxil edilməsi ilə razılaşmağa çalışır. Qarabağa silah tədarükünün qarşısının kəsilməsinə görə bu məsələlərdə Aİ və ABŞ-dan dəstək almağa çalışır. Və beləliklə, faktiki olaraq bu ərazi üzərində nəzarəti saxlayır. Bu, birincisi.

İkincisi, Ermənistanın baş naziri bu cür ritorika və hərəkətləri ilə respublika daxilindəki revanşist dairələrə nümayiş etdirməyə çalışır ki, o, Qarabağa status verilməsinin zəruriliyi məsələsini mümkün qədər uzun müddət təbliğ edəcək və Qarabağın Azərbaycanın yurisdiksiyasına qaytarılması ilə bağlı sənədi imzalamayacaq.

Təbii ki, Azərbaycanın hər hansı “təcavüz”ündən söhbət gedə bilməz. Bütün bunlar, indi hamının dediyi kimi, saxtakarlıq və siyasətdir. Azərbaycan üçün söhbət, ilk növbədə öz ərazisinin təhlükəsizliyindən gedir. Azərbaycan Ermənistandan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli bəyanatında qeyd olunan şərtlərin yerinə yetirilməsini tələb edir. Və orada bildirilir ki, bütün silahlı birləşmələr Qarabağdan çıxarılmalı, ora silah-sursat verilməsi dayandırılmalıdır. Bu edilmir. Bundan başqa, Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir iş görülməyib. Bütün bunlar yerinə yetirilməli olan tamamilə ədalətli tələblərdir.

**- Eyni zamanda, Paşinyan yenə deyir ki, sülh müqaviləsi imzalanacaq. İmzalanacaqmı?**

- O, irəli sürdüyü şərtlərlə bunu imzalamağa hazırdır. Ermənistan hökumətinin başçısı Ermənistanın Bakıya imzalamağı təklif etdiyi sülh müqaviləsi İrəvanın prinsiplərinin danışıqlarda Qərb tərəfdaşları tərəfindən həyata keçirilməsini təmin etməyə çalışır. Bunun üçün müvafiq informasiya fonu yaradılır, Azərbaycana diplomatik təzyiqlərin təşkilinə cəhd edilir. Və sonra onun şərtləri qəbul edilərsə, niyə sülh müqaviləsi imzalamasın. Nikol Paşinyan görür ki, onun müxtəlif avantürist təkliflərini dəstəkləməyə hazır olan xarici qüvvələr peyda olub.

Bu qüvvələr isə öz oyunlarını oynayırlar. Onları Ermənistan maraqlandırmır, Rusiya ilə qlobal qarşıdurmada və Cənubi Qafqazda beynəlxalq münaqişənin yeni nöqtəsində maraqlıdırlar. Burada Ukrayna ilə paralel olaraq yeni müharibə başlasa, Aİ və ABŞ çox məmnun olacaq. Bu motivlərdən Ermənistanı Azərbaycana qarşı təcavüzkar hərəkətlərə, bəyanatlara sövq edəcəklər. Paşinyan bunu edir, o inanır ki, Qərb indi onu fəal şəkildə dəstəkləyəcək və bu yolla Qarabağ və Azərbaycana qaytarılan qalan ərazilər ətrafında vəziyyəti birtəhər dəyişəcək. O, 44 günlük müharibəni düşməninə uduzaraq təslim olan lider kimi tarixə düşəcək. Amma bir siyasətçi kimi çətin vəziyyətdə olan ölkəsi üçün tarixin axarını döndərməyə çalışır.

**- Deyir ki, sülh müqaviləsinin imzalanması və Azərbaycan hakimiyyətinin Qarabağın erməni icmasının nümayəndələri ilə danışıqları da beynəlxalq mexanizmlə möhürlənməlidir. Bu, eyni operadandır?**

- Qeyd etdiyim kimi, Nikol Paşinyan nizam-



lanma prosesinə daim Amerika və Qərbi Avropa vektorunu daxil etməyə çalışır. Bu, onun vəzifəsidir və Vaşinqton və Brüsseldən olan müvafiq kuratorlar tərəfindən qoyulmuş vəzifədir. Məqsəd ABŞ, Fransa və bütövlükdə Aİ-ni mümkün qədər regiona cəlb etməkdir.

Əgər Qərb missiyası Qarabağda yerləşdirilsə, bu, onun və Qərb qüvvələrinin qələbəsi olacaq.

**- Ermənistanın Azərbaycan şərtləri ilə sülh sazişi imzalaması üçün şərait necə inkişaf etməlidir?**

- Ermənistan İkinci Qarabağ müharibəsində uduzan tərəf kimi üçtərəfli bəyanatı imzalayan anda hər şeyə hazır idi. Məlumdur ki, Azərbaycan silahlı qüvvələri 30 il ərzində işğal altında olan bütün ərazilərdə asayişi təmin edə bildi.

Ermənistan məcbur olub bəyanatın imzalanmasına getdi, sonra dedilər, bir az vaxt verin, söz veririk ki, Qarabağdakı birləşmələrimiz ləğv olunacaq. Və sonra biz Ermənistanın məhz bu “taym-aut” fonunda Azərbaycan və Rusiya ilə necə sövdələşməyə başladığını görməyə başladıq: artıq imzaladığını yerinə yetirmək üçün ona nə lazımdır? Deyin, gəlin hər şeyi necə edəcəyimizi müzakirə edək.

Bu, Qərbin müxtəlif regionlarda həlli mümkün olmayan mürəkkəb prosesləri başlatmağa çalışdığı Avropa sxeminin həyata keçirilməsidir. Qarabağın statusu kimi məsələləri qabartmaq və danışıqları sonsuza qədər uzatmaq. Qərbin Ermənistana bu dəstəyini və indi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində müşahidə etdiyimiz destruktiv meylləri dayandırmaq vacibdir. Biz bəyanat imzaladıq- bu, qeyd-şərtsiz həyata keçirilməlidir. Bu, Rusiyanın da mövqeyidir. Qərbin mövqeyi isə- gəlin bir az da danışaq. Əgər Avropa İttifaqı və ABŞ nümayəndələrinin Cənubi Qafqazda daxili nizamlanmaya müdaxiləsi olmasa Ermənistan-



Azərbaycan münasibətlərinin normallaşması məsələsi mütləq həll olunacaq.

Problem ondadır ki, Rusiya bu cür destruktiv meylləri götürə və ya dayandıra bilməz, çünki Ermənistan suveren dövlətdir və Moskva ona heç kimlə təmas qurmağı qadağan edə bilməz. Rusiya mütəmadi olaraq öz mövqeyini açıqlayır, məlumdur: noyabrın razılaşmasının bütün bəndləri və ondan sonrakı bütün üçtərəfli bəyanatlar yerinə yetirilməlidir.



Əsas tezis budur. Qarabağ Azərbaycandır. Bunun əsasında Bakı ilə İrəvan sülh müqaviləsi imzalamalıdır. Bunun baş verməsi üçün Rusiya və Azərbaycan birlikdə çalışacaqlar.

**- Ermənistan son həftələr Laçın yolundan yan keçməklə mütəmadi olaraq Qarabağa silah və hərbi personal aparır, üstəlik, artıq yeni dolama yollarının tikintisinə başlayıb...**

- İrəvan Qarabağda qanunsuz silahlı birləşmələrin mövcudluğuna dəstək təşkil etməyə çalışır. Bu, Ermənistanın siyasətidir. İrəvan bunu etməsə, Azərbaycan Qarabağ erməniləri ilə danışıqlarda təşəbbüsü tamamilə öz üzərinə götürəcək və bunu artıq edir. Bu, sülh yolu ilə nizamlanmaya yol açacaq. İrəvan üçün bu, onun maraqlı olduğu proses deyil. İrəvanın vəzifəsi Qarabağ əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya etmək istəmədiyini nümayiş etdirərək sülh məsələsini dayandırmaqdır. Alternativ vəziyyət sadəcə olaraq İrəvanı gözdən salacaq və Qarabağın qalan hissəsini öz nəzarətində saxlamaq səylərini şübhə altına salacaq. Və əgər Qarabağ erməniləri Azərbaycan cəmiyyətinə inteqrasiyaya hazır olduqlarını bildirsələr, Qarabağın qalan hissəsinə hansı nəzarətdən danışmaq olar. Buna görə də İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı yenidən nəzərdən keçirən revanşist siyasi qüvvələri dəstəkləyir. Bu, onun və Qərbin geosiyasi oyundakı xəritələrindən biridir.

Ermənistan təbii ki, ordusunun indiki halında revanş cəhdi edə bilməyəcək. Ermənistan ordusu vəziyyəti hərbi yolla dəyişmək iqtidarında deyil. Bunu hamı başa düşür. Ona görə də siyasi xarici təzyiq yolu seçilib.

**- Keçən həftə Ermənistan Konstitusiya Məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu respublika konstitusiyasına uyğun olaraq tanıdı. Nizamnamənin ratifikasiyası o deməkdir ki, ölkə baxdığı bütün işlərlə bağlı Haaqa Tribunalının yurisdiksiyasını tanıyır. Bu, Rusiya liderinin həbsi üçün BCM-nin orderinin verilməsindən bir həftə sonra baş verib.**

- Bu, rəsmi şəkildə ifadə olunan Ermənistanın mövqeyidir. Yəni, faktiki olaraq Ermənistan bununla Rusiya liderini öz ərazisində saxlamağa hazır olduğunu etiraf edir. Artıq Rusiya Xarici İşlər Nazirliyi İrəvanın bu addımını qəbuledilməz adlandırıb. İrəvanın belə bir addımı əsasında biz Ermənistanın hakimiyyəti ilə münasibətlərin gələcək strategiyasını quracağıq. Ermənistanın indiki rəhbərliyi Rusiyaya münasibətdə özünü belə bir mövqeyə qoyur. Moskva bunu necə lazımdır nəzərə alacaq.

**- Maraqlıdır ki, Ermənistanın baş naziri artıq Aİ-ni də tənqid etməyə başlayıb, deyir ki, Azərbaycana kifayət qədər təzyiq göstərmirlər.**

- Avropa İttifaqı birləşməkdən uzaqdır, orada müxtəlif qüvvələr fəaliyyət göstərir. Və bununla da Paşinyan Azərbaycanla böyük qarşıdurmaya hazırlaşan siyasi qüvvələrə Bakı ilə konstruktiv işgüzar əlaqələr qurmağa hazır olanları məğlub etməyə kömək edir. Bu, birmənalı olaraq Azərbaycana qarşı Ermənistanın tərəfini tutacaq Avropadakı siyasi qüvvələrin təkanıdır. O, onların oynaya biləcəyi daha bir kart təqdim edir, Aİ-dəki bəzi qüvvələri bunu deməyə vadar edir: baxın, bizi tənqid edirlər, biz Qafqazda kifayət qədər fəal deyilik. Paşinyan Qərbdən daha çox dəstək istəyir, o, Azərbaycana qarşı sanksiyaların tətbiqini, Avropa İttifaqı ilə Bakı arasında təmaslara bəzi hüquqi məhdudiyyətlərin qoyulmasını istəyir. Bu yaxınlarda Aİ bir sıra sahələrdə Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq etməyə çağırıb. Paşinyan vəziyyəti gərginləşdirmək istəyir.

**- Mövcud vəziyyəti həll etmək üçün Azərbaycanın hərbi ssenarisi varmı?**

- Azərbaycan diplomatik hərəkət edəcək. Qarabağın qalan hissəsinin qaytarılması tədricən, səbirlə həyata keçiriləcək. Artıq Laçın dəhlizi ilə Qarabağda yerləşən erməni silahlılarının təchizatı kəsilir. Digər tədarük marşrutları da tədricən bağlanacaq. Bakı Qarabağın erməni icması ilə başladığı dialoqu davam etdirəcək. Rusiya sülhməramlılarının Qarabağda yerləşdirilməsinin başa çatmasına 2,5 il qalıb. Bundan sonra missiya Qarabağı təhlükəsiz tərk edə bilər. Və Ermənistan Azərbaycanın öz qalan ərazilərini qaytarmasına mane ola bilməyəcək.

***Tərcümə - Elçin Bayramlı***

# “Dəmir yumruğumuzu bir daha nümayiş etdirə bilərik”



Millət vəkili Azər Badamovun "Səs" qəzetinə müsahibəsi

## *Azər Badamov: "Ketrin Kolonnanın Azərbaycana səfərinin heç də xoşniyyətli olmadığını hesab edirəm"*





**- Azər müəllim, Azərbaycan ordusunun keçirdiyi son əməliyyatla Xankəndi ətarfındakı mühüm yüksəkliklərə nəzarət etməsi, sonrakı proseslərdə davam etdirilməsi nə dərəcədə gözlənilləndir?**

- Qarabağda ermənilərin məskunlaşdığı dağlıq əraziləri Azərbaycanın suverən torpaqlarıdır. 10 noyabr 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanata əsasən bu ərazilərdə təhlükəsizliyin təmin edilməsi məqsədilə müvəqqəti olaraq Rusiya sülhməramlıları yerləşdirilmişdir. Amma bu, sülhməramlıların müvəqqəti yerləşdirilməsi erməni separatçılara dəstək göstərilməsi üçün orda olması anlamına gətirməməlidir. Azərbaycan ordusu döyüş meydanında öz torpaqlarını erməni işğalçılardan təmizləyərək ölkə ərazisinin bütövlüyünü təmin etmişdir. Bundan sonra Ermənistana torpaqlarımızda öz çirkin niyyətlərinin yenidən həyata keçirilməsinə heç vaxt imkan verilməyəcəkdir. Ona görə də, bir neçə gün əvvəl əməliyyat keçirməklə müzəffər ordumuz Xankəndidən çıxan torpaq yollarda hərbi məqsədlər üçün gizli daşımaların həyata keçirilməsinin qarşısını almışdır. Bu, həm də Azərbaycan ordusunun öz torpaqlarında istənilən zaman antiterror əməliyyatları aparmağa hazır olduğunun göstəricisidir. Hesab edirəm ki, növbəti əməliyyat Laçın yolunun Ermənistanla birləşən yerdə nəzarət



keçid məntəqələrin yaradılması ilə bağlı olmalıdır. Bizə öz məqsədlərimizə çatmağımıza heç kim mane ola bilməz. Lazım gələrsə Dəmir yumruğumuzu bir daha nümayiş etdirə bilərik.

**- Rusiya müdafiə nazirliyi növbəti dəfə Azərbaycanın keçirdiyi son əməliyyata özünəməxsus şəkildə rəy verməyə çalışdı. Rusiyanın yenə də 10 noyabr razılaşmasından kənara çıxması nəyə hesablanıb?**

- Rusiyanın Müdafiə Nazirliyi təəssüf ki, son əməliyyatla bağlı özünəməxsus rəy bildirdi. Bu rəy və sülhməramlıların hərəkətləri Rusiyanın regionda sülhün yaranmasını istəmədiyini düşüncəsini ortaya qoyur. Əgər belə olmasaydı, Rusiya sülhməramlıları separatçılara dəstək vermək əvəzinə Ermənistandan Üçtərəfli Bəyanatın icra olunmamış 4, 6 və 9-cu bəndlərin icrasını tələb edərdi. Həm də ermənilərin hərbi kolonun qabağına düşüb Rusiya bayrağı altında gizlin yollarla hərbi məqsədli daşımalar həyata keçirməzdi. Azərbaycan bütün qonşu ölkələri ilə dostluq münasibətlərini davam etdirilməsinə və möhkəmləndirilməsinə çalışır. Gərək qonşularımız da Azərbaycanın sərgilədiyi mövqeyinə hörmətlə yanaşsın. Hesab edirəm ki, ölkələr arası münasibətlər qarşılıqlı hörmət üzərində qurulmalıdır.

**- Fransanın xarici işlər naziri Ketrin Kolonna Azərbaycana səfərə gəlir. Fransa od içində olduğu bir məqamda bu məmurun Bakıya gəlməsi nə ilə bağlı ola bilər?**

- Fransanın xarici işlər naziri Ketrin Kolonnanın Azərbaycana səfərinin heç də xoşniyyətli olmadığını hesab edirəm. Çünki nazir bir neçə gün əvvəl ermənipərəst mövqeyini açıqlamışdır. Əgər Parisdə açıqladığı ermənipərəst mövqeyini Azərbaycanda da davam etdirmək istəsə, ələbəttə ki, onun özünə uyğun cavabı da alacaqdır. Azərbaycanın iradəsini və milli maraqlarına uyğun siyasətinin davam etdirilməsi əzmini heç kim qıra bilməz. Ketrin Kolonna və onun prezidenti Emmanuel Makron Azərbaycana yol göstərməyin əvəzinə ölkəsindəki özbaşınalıqlarla məşğul olaraq öz vətəndaşları üçün bir gün ağlasa, daha yaxşı və hörmətli olardı.

***GÜLYANƏ***



Elçin Bayramlı

## Binalarda xidmət haqqı problemi: öz evində kirayə yaşamaq?

***Şəhərlərdə çoxmənzilli binaların idarə edilməsi problemi həll edilmədi, əksinə, bu sahədə vəziyyət daha da gərginləşib. Bu sahədə 2 fərqli vəziyyət var. Köhnə binalar və yeni binalar. Sovet dövründə inşa edilmiş çoxmənzilli binalara icra hakimiyyətlərinin nəzdindəki mənzil-kommunal təsərrüfatı birlikləri xidmət göstərir. Onların göstərdikləri xidmətlər üzrə ödəniş məbləğləri Nazirlər Kabinetinin müvafiq qərarı ilə hesablanır.***

Lakin sonradan tikilmiş yeni binalarda vəziyyət fərqlidir. Onların bir qismində binanı tikən və idarəsini qanunsuz olaraq hələ də əlində saxlayan MTK-lar, bir qismində bu sahədə ixtisaslaşmış şirkətlər (MMC), bir qismində isə sakinlərin özlərinin yaratdığı və özlərinin idarə etdikləri Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyəti (MMMC) baxır.

MMMC-lərin idarə etdikləri binalarda problem yoxdur. Sakinlər xərcləri özləri hesablayır, yığır və işləri görür və ya gordürürlər. Burada elə bir narazılıq yaranmır.

MTK-lar və MMC-lərin idarə etdiyi binalarda isə müxtəlif problemlər var. Şirkətlər sakinlərin bəzilərinin pul ödəmədiyini qeyd edir və həmin sakinlərə bəzi problemlər yaradırlar. Sakinlər isə şirkətlərin yüksək qiymət təyin etdiyini və bunu ödəməyin çətin olduğunu deyirlər.

Belə binalarda xidmət haqqı 30 qəpikdən 2 manatadək dəyişir. Bu tariflərin nəyin əsasında müəyyən edildiyi məlum deyil. Ona görə də qanunvericilikdə bu məsələyə aydınlıq gətirilməlidir. Bundan başqa, bir çox şirkətlər sakinlərə yığımlar və xərclər haqda dəqiq məlumat vermirlər. Tariflərin müəyyən edilməsinin normaları təyin edilməli və xidmətin keyfiyyəti yoxlanılmalıdır.

Qanuna görə, dövlət binanı istismara qəbul edildikdən sonra artıq oranı MTK idarə edə bilməz. Bu binalarda mənzil sahibləri özləri MMMC yaradıb işləri özləri görməli, ya da bu sahədə ixtisaslaşmış bir MMC-lə müqavilə bağlayıb işləri ona həvalə etməlidirlər.

Əgər çoxmənzilli binaların sakinləri yaratdıqları MMMC-nin və ya binaya xidmət göstərən MMC-nin xidmətlərindən narazıdırlarsa, yığıncaq keçirərək həmin müəssisədən imtina edə bilərlər və xidmətləri “JEK”lər (MİS) göstərə bilər. Mövcud qanunvericilik buna icazə verir.

Əsas narazılıq binalara xidmət göstərən MTK və MMC-lərin qoyduğu tariflə bağlıdır. Bakı üzrə orta tariflər hər kvadrata görə 50 qəpik - 1 manatdır. Şərti olaraq, 3 otaqlı- 100 kvadrat metrlik bir mənzili götürdükdə, bu 50-100 manat civarında vəsait edir ki, bu da əhalinin əksər hissəsi üçün yüksək məbləğdir.

Çox sayda işsiz, pensiyaçı, azmaaşlı sakinlər var ki, özlərinin xüsusi əmlakı olan şəxsi evində yaşamaq üçün niyə kiməsə pul ödəməliyəm deyə sual edir. Haqlı sualdır. Hər kəsin öz şəxsi əmlakında pul ödəmədən yaşamaq hüququ vardır. O yalnız, zəruri kommunal xidmətlərə- su, elektrik, qaz kimi təminatlar üçün məcburi vəsait ödəməlidir. Digər xidmətlər üçün belə bir məcburiyyəti yoxdur. Məsələn, aşağı mərtəbədə yaşayan sakin deyə bilər ki, mən liftdən istifadə etmirəm, mənzilimin qarşısını da özüm təmizləyəcəm, həyətdə əkdiyiniz ağacların və sair işlərin mənə dəxli yoxdur, mən niyə sizə pul ödəməliyəm? Öz evimdə kirayə yaşamalıyam?

Məntiqlə də, qanunla da sakin haqlıdır. Bu ödəmə yalnız könüllü razılıq əsasında ola bilər. Amma MTK və MMC-lər özbaşına olaraq xidmət haqqı ödəməyənlərin suyunu, elektrikini kəsir - halbuki bu, qanunla qadağandır. İş o yerə gəlib çatıb ki, illərlə mənzilində yaşamayan şəxsdən də xidmət haqqı tələb edirlər. Bu hansı məntiqə, hansı qanuna əsaslanır? Vətəndaşa göstərmədiyin xidmətin haqqını ondan necə tələb edə bilərsən?

Ona görə də, xidmət haqqı elə qoyulmalıdır ki, hamı ödəyə bilsin və narazılıq yaranmasın. Lakin yenə də bu haqqı ödəyə bilməyən sakinlər olacaq. Çünki işsizlərin də öz şəxsi mənzilində yaşamaq hüququ var və bu, məhdudlaşdırıla bilməz. Vəziyyətdən çıxış yolu kimi, vahid tariflərin təyin edilməsi və bütün binaların MİS-lərə verilməsi təklif olunur. Hesab edirəm ki, bu təkliflər daha optimaldır və yaranmış qarışıqlıqları nizamlaya bilər.

# Şəhərin bizə töhfəsi: nələri itirib, nələri qazandıq?

*Kəndin bizə qazandırdığı sağlamlığı meqapolis əlimizdən alır*



***Lift, kondisioner, mobil telefonlar, havalandırma sistemləri, fast-food qidalar və s. Həyatımızı asanlaşdırdığını düşündüyümüz texnologiya və alışqanlıqlarımız, əslində, o qədər də məsum deyilmiş, bunun gec fərqinə varırıq. Texnologiyanın inkişafı, "tez-bazar" yemək çeşidləri, meqapolisin bizi alışdırdığı fərqli adətlərimiz bizə həm də bol-bol xəstəlik gətirdi. Fizioloji və psixoloji tənbəllik, miqren, piylənmə kimi bəlalar elə dünya tibbində "şəhər xəstəlikləri" adı ilə tanınır.***



## Kondisionerli otaqlar

İnsanlar daha nə yayın istisindən, nə qışın soyuğundan qorxmur, çünki evimizdə də, iş yerlərlimizdə də, getdiyimiz mağazalarda, dincəldiyimiz istirahət mərkəzlərində də xüsusi sistemlər işləyir. Araşdırmalara görə kondisioner ”legionella” adlandırılan mikrobların yaranmasına, yayılmasına səbəb olur. Bu mikrob ağciyər xəstəliklərinə, sətəlcəm və vərəmə səbəb olur. Bu virus immun sistemini zəiflədərək orqanizmin müxtəlif xəstəliklərə yoluxmasına səbəb olur.

Qulaq, diş iltihablanmasına, astma, bronxit, hətta xərçəngə belə səbəb olan ”legionella” virusu insana miningit, baş və boyun ağrıları, onurğa problemləri, dəridə quruluq kimi xəstəliklər də ”bəxş” edir. Ən maraqdoğuran məqam isə budur ki, davamlı olaraq kondisioner işləyən yerdə yaşayan adam hava mülayim olsa da, kondisioneri işə salmaq istəyir, çünki onda artıq asılılıq yaranıb.

## Biz mobil telefonlara aşiq olmuşuq

Səhərlər oyanar-oyanmaz ilk əl atığımız əşya telefondur, elə deyil? İndi bir çoxumuz həyatımızı onsuz təsəvvür etmirik. Ekspertlər deyir ki, gündə təxminən 2 saat mobil telefonla danışan kişilərdə sperma sayı 30 faizədək azalır, onların sonsuzluq ehtimalı artır. Bundan əlavə hamiləlik dövründə mobil telefondan çox istifadə edən qadınların dünyaya gətirdiyi uşaqlarda DNT pozuqluqları, yaddaş problemləri rastlanır. Mobil telefon genefond qatilidir desək, yeridir.

Bədən mobil telefonun yaydığı dalğanın ən az yarısını mənimsəyir. Bu təhlükəli dalğalar sonradan insan orqanizmində müxtəlif xəstəliklərə səbəb olur. Yaddaş problemi, fikir dağınıqlığı da bu problemlərdəndir. Əvvəllər şəhər həyatının vacib şərtlərindən olan mobil telefonlar, əslində, son illər kəndlərdə də imtinaedilməz predmetə çevrilib. Böyükdən kiçiyə hamının əlinə yapışmış vəziyyətdə olan bu kiçik düşmənlər insana ondan imtina edilməyəcək qədər çox imkan yaradır.

## Pilləkənsiz binalar insan dostudur

Əvvəllər yuxarı mərtəbələrə çıxmaq üçün pilləkanlardan istifadə edirdik, son illər 1-ci mərtəbədən 2-ci mərtəbəyə qalxmaq üçün belə liftə minirik. İndi şəxsi evini 2-3 mərtəbəli tikdirib içinə lift inşa etdirənlər var. Qısaca desək, lift sağlamlığımızı əlimizdən alıb.

Yaxşı xatırlayıram, bir neçə il əvvəl idi, müsahibə almaq üçün Gənclər və İdman Nazirliyinə getmişdim. Nazirlik binası 4 mərtəbəlidir, ən sonuncu mərtəbəyə qalxmalı idim. Birinci mərtəbənin foyesində nə qədər axtardım, lifti tapa bilmədim. Geri qayıdıb mühavizədən soruşmaq istədim, elə bu dəm yuxarı mərtəbədən düşən ahıl yaşlı bir nəfəri gördüm, ”müəllim, lifti tapa bilmirəm, hardadır?” deyə soruşdum. Əvvəl gülümsədi, sonra da ”xanım qızım, bura Gənclər və İdman Nazirliyidir” dedi. Lifti yoxmuş binanın sən demə

## Mədəniyyətimizi “mədə niyyəti”nə çevirdik

Gərgin iş rejiminin, stressin bizim orqanizmimizdə qoyduğu silinməz izlərdən biri də mədə xorasıdır. Səhərlər normal səhər yeməyi - yağ, pendir, qaymaq, yumurta, süd kimi qidalarla qidalanmaq əvəzinə iş yerinin bufetində bir parça ağ bulka və tünd kofe ilə qəlyanaltı edən insanlar çoxdur, elə deyil? Bu yazını oxuyan oxucu, bəlkə sən də elə qidalanırsan. İndi insanların əksəriyyəti günortalar çörək arası fast-foodla qidalanır, mənşəyi bilinməyən qazlı sular içir və bununla da mədə xorasını özləri dəvət edir.

Əsrimizin bəlasına çevrilən piylənmə də ətrafımızda kifayət qədər insanın problemidir. Hazır qidalar, zərərli vərdişlər nəticəsində orqanizmdə yağ miqdarının sürətlə artması bu xəstəliyin boy qaldırmasına imkan yaradır. Üstəlik, bir çoxumuz iş günlərində sağlam ev xörəkləri yerinə ayaqüstü qidalanmalı oluruq, kimimiz məcburiyyətdən, kimimiz könüllü. Ləzzətinə heyran olduğumuz fast-food yeməkləri daha sonra artıq çəki olaraq bədənimizdən sallananda peşman olsaq da gec olur. Arıqlamağa çalışırıq, amma pilləkan yerinə lift, piyada gəzmək yerinə maşına minməyin verdiyi komfort arıqlamaq istəyimizi anında boğur.

## Hava havalandırma sistemi ilə ölümə çevrilir

Xərçəng xəstəliyinin kökü şəhərlərdə yarandı, sonra kəndbəkənd dolaşdı. Yaşadığımız hər süni mühitdə xərçəngi yaradan bir çox səbəb var. Evlərimizin döşəməsinə çəkilən kimyəvi boyalar, təbii ot yerinə parklara döşənən süni yaşıl örtüklər, çəkdiyimiz və çəkmədən tüstüsünə məruz qaldığımız siqaretlər...






Son illər xərçəngin yayılmasının ən mühim səbəblərindən biri kimi ofislərin havalandırma sistemi göstərilir. Böyük otellərdə, supermarketlərdə və qapalı ofislərdə işləyənlər daha çox risk altındadır. Diabet xəstələri, alkoqoliklər, yaşlılar və körpələr, kimyaterapiya alanlar, böyrək çatışmazlığı və xroniki ağciyər xəstəlikləri olan insanlar üçün süni havalandırma sistemi işləyən məkanlarda işləmək həyati risk daşıyır.

## Özümüzə ev yox, qəbir alırıq

Yorğun iş gününün stressini atmaq üçün dayanmadan içdiyimiz kofeinli içkilər - kofe, kola  Bu içkilərin insanda vəlvələ kimi bir xəstəlik yaratdığını bilirdinizmi? Vəlvələ xəstəliyi daim qorxu altında, ətrafından təhlükə gözləyən, hər an pis nəsə baş verəcəyi fikri ilə yaşayanların xəstəliyidir. Onlarda güvənmək hissi azalır, hamının ona pislik edəcəyi fikrinə düşürlər.

Bu xəstəlik həm də qapalı ofislərdə, günəş görməyən evlərdə yaranır. Ətrafla təmasımız minimuma enir, ünsiyyətmiz olmur. Daha çox yerə qənaət edib daha çox mənzil satmaq istəyən işbazların qurbanı olduğumuzu hamımız bilirik, amma şəhərdə yaşamaq istəyi o yüksəkmərtəbəli binalardakı mənzillərdən birini bizə aldırır. Pul verib özümüzə qəbir alırıq desək, daha doğru olar. Çünki bir-birinin dibində inşa edilən bu yüksəkmərtəbəli evlərə gün düşmədiyi üçün evimiz rütubət və xəstəlik yuvasına çevirilir.

## Monotonluq bizi bezdirir

Hər gün işə get, saatlarını tıxaclarda sərf et, işdə hər günkü prosesi təkrarla, yenidən bir neçə saatını tıxaca qurban ver, axşam evə gəlib sabah yenidən eyni monotonluğu təkrarlamaq bir çoxumuzun əsəblərini gərir. Bunun nəticəsində də depressiv duruma düşürük. Üstəlik, sabah yenə işə getməyə məcbur olduğumuz üçün özümüzü enerjili hiss edək deyə bir çoxumuz antidepressant dərmanlar içirik. Adı antidepressant olmasına baxmayaraq müvəqqəti depressiyadan çıxardığı adamı daha betər bədbinliyə məhkum edən bu dərmanlar çox təhlükəlidir.

Yaratdığı problemlərdən biri də yaddaşsızlıqdır. Heç eynəyiniz gözünüzdə ikən onu axtardınızmı? Bəs telefonla danışa-danışa evin hər küncünü axtarıb ”bu telefon hanı görəsən” deyə deyindinizmi? Üstəlik bu problem yaşlı olanlarda deyil, gənclərdə də çox rastlanır. Səbəbi də şəhər həyatının qaynarlığı, stressidir. Üstəlik yaddaş pozuqlğunda qidalanmanın da böyük rolu var.

## İnternet demə, hava de, su de

Texnologiyanın misilsiz inkişafı bizə internet kimi nəhəng bir dünya bəxş elədi, indi onun sayəsində məsafələr qısalıb, uzaqlar yaxın olub, yadlar doğmalaşıb. Amma düşündükcə ondan asılı halda yaşadığımızı da anlayırıq. Dünyada 100 milyonlarla insan internet istifadəçisidir. Həm də bunu şüurlu halda edərək özümüzü könüllü onun əsirliyinə vermiş sayılırıq. Olmayanda nəfəsimiz daralır, qanımız qaralır. İnternetsiz bir gün keçirmək yerinə ac qalmağı üstün tutanlar çoxdur.

Şəhər xəstəliklərindən biri də əlacı tapılmayan miqren hesab edilir. Dünya tibbinə görə bu xəstəliyin müalicəsi olmasa da həkimlər miqrendən nisbətən qurtulmağı mümkün hesab edirlər ki, bu yol da kənd həyatıdır. Miqren beyin damarlarının sıxılaraq beyinə qan işləməməsi nəticəsində yaranan xəstəlikdir, həkimlər hesab edir ki, qaynar həyat, güclü stress, səs-küy bu xəstəliyi oyadır. Odur ki, kənd həyatı ilə barışıq halda yaşayın, fürsət olduqca istirahətə böyük şəhərlərə yox, kiçik kəndlərə gedin, ayaqlarınız süni ota deyil, torpağa dəysin.

**_Lalə Mehralı_**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Daha çox turist cəlb etmək üçün hansı addımlar atılmalıdır?

*"Başa vurduğumuz 2022-ci ildə pandemiyadan əvvəlki dövrə nisbətən Azərbaycan turizm bazarı təxminən 50%-ə yaxın bərpa edilib. Dünyada isə bu göstərici təxminən 60%-ə qədərdir. Azərbaycana 1,6 milyon xarici vətəndaş gəlib. Ümumdünya Turizm Təşkilatları ekspertləri də 2023-cü ilin də bərpa ili olduğunu qeyd edirlər". Bu sözləri SİA-ya açıqlamasında Qlobal Sağlamlıq Turizm Şurasının baş katibi Ceyhun Aşurov deyib.*



**TURİZM EKSPERTİ DANIŞDI**



Onun sözlərinə görə, bu bərpanın təxmini olaraq 80%-dən çox həyata keçəcəyini proqnozlaşdırırlar: "Təbii ki, Azərbaycan da dünya turizm bazarından öz payını almaqdan ötrü müəyyən işlər görür. Azərbaycana daha çox turist cəlb etmək üçün xüsusi infrastrukturlar qurulub. Müəyyən rayonlar var ki, orada turizmlə bağlı kifayət qədər müasir standartlara uyğun infrastruktur qurulub. Həmin regionlara daha çox turistin səyahət etdiyini müşahidə edirik. Qəbələ, Quba, İsmayıllı, Şəki, son zamanlarda cənub zonasına turistlərin daha çox üz tutmasının səbəblərindən biri də həmin bölgələrdə turistlər üçün müasir infrastrukturun mövcud olması ilə əlaqədardır. Eyni zamanda, Qəbələyə sürət qatarının istifadəyə verilməsi daşınmanı daha da asanlaşdırır".

Turizm eksperti sözlərinə davam edərək bildirib ki, Azərbaycan Hava Yolları da hər il turizm məkanlarından fərqli destinasiyalara uçuşlar həyata keçirir: "Bu coğrafiya genişləndikcə ölkələrarası əlaqələr də genişlənir və bu da turist axınına səbəb olur. Təəssüf ki, hələ də müəyyən səbəblərdən dolayı bizim sərhədlər qapalı qalıb. Sərhədlərin bağlı olması turistlərin gəlməsi üçün müəyyən qədər çətinlik törədir. Çünki Azərbaycana gələn xarici vətəndaşların çoxunun sərhədyanı ölkələrdən gəldiyini müşahidə edirik.

Ümid edirik ki, bununla əlaqədar uğurlu addımlar atılar. Bu yaxınlarda Nazirlər Kabinetinin qərarı ilə artıq Covid-19-la bağlı sənədlərin tələbinin aradan qalxması, məhdudiyyətlərin yüngülləşməsi turistlər üçün əlverişli faktordur. Eyni zamanda, Azərbaycanda hava yolları ilə bağlı ciddi islahatlar aparılır. Azərbaycanın yalnız Bakı şəhərində deyil, digər bölgələrdə olan beynəlxalq aeroportlarının da daha səmərəli şəkildə çalışacağını gözləyirik. Ucuz hava daşıyıcılarının Azərbaycan bazarına daxil olması turizmə müsbət təsir göstərə bilər. 2019-cu ildə Azərbaycandan Gürcüstana 1,5 milyon vətəndaşımız səfər edib. Onların bir hissəsi turist olsa da, qalan hissəsi son destinasiya olaraq Gürcüstandan qeyri bir ölkəni seçib. Bunun da əsas səbəbi Gürcüstandan həyata keçirilən uçuşların daha ucuz olmasıdır. Düşünürəm ki, biz də Azərbaycanda ucuz hava daşıyıcıların fəaliyyətinə şərait yarada bilsək, turistlərin daha rahat səfər etməsini təmin edə bilərik".

***L. Əlizadə***

# Dərman vasitələri ilə bağlı yeni sənəd hazırlanır

Hökumət dərman vasitələri ilə bağlı yeni sənəd hazırlayır. SİA xəbər verir ki, bu barədə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib.

Onun sözlərinə görə, ölkədə müşahidə olunan dərman qıtlığı ilə bağlı məsələnin həlli vacibdir: "Müvafiq qurumlarla danışıqlar aparılan zaman Nazirlər Kabinetində dərman vasitələri haqqında yeni sənədin hazırlandığı bildirilir. Hətta Baş nazir Əli Əsədov parlamentdə çıxışı zamanı həmin sənədin hazırlanmasında təcrübəli şəxslərin fikirlərinin öyrənilməsinə diqqət çəkmişdi. Yəqin ki, sənəd hazırlanır və lazımi mərhələdə komitə üzvləri də dəvət olunacaq. Hesab edirəm ki, bu işlər dərmanların Azərbaycana gətirilməsini sadələşdirəcək və bundan sonra qiymətlərin də aşağı düşməsi mümkün ola bilər".



# Qarın nahiyəsindəki yağları əridir, 1 həftəyə 3 kiloqram arıqladır



Artıq çəkidən əziyyət çəkənlər idman və pəhrizlə yanaşı bədəndəki artıq yağları əritməyə yardımçı olan vasitələrə müraciət etməlidir. Bəs bu, nə ola bilər?

Axşam.az iştahını azaltmağa və qarın nahiyəsindəki artıq yağlardan qurtulmağa imkan verən resepti sizə təqdim edir.

Tərkibi:

***-1 portağal qabığı***
***-1 çay qaşığı zəncəfil***
***-1 çay qaşığı sarıkök***
***-1 çay qaşığı ucunda darçın***
***-2 stəkan su***

Bütün inqrediyentləri ocağın üstündə qaynadıb səhər və axşam acqarına için. Bu, bir həftə ərzində 3 kiloqram atmağınıza yardımçı olacaqdır.

Qeyd: bu resept xroniki xəstəlikləri olanlar və hamilələr üçün tövsiyə olunmur.


## ELAN

"Bakı İxtisaslaşdırılmış Mexanizasiya-7" Aciq Səhmdar Cəmiyyəti Səhmdarlara bildirir ki, 20 may 2023-cü il saat 10-00 Bakı şəhəri 7-ci MKR, Xarici Dairəvi küçəsi 3121-ci məhəllə ünvanında yerləşən inzibati binasında səhmdarların növbəti ümumi yığıncağı olacaqdır.

Yığıncağın gündəliyində müzakirə olunacaq məsələlər aşağıdakılardı:

**1.** ASC-nin 2022-ci il maliyyə - təsərrüfat fəaliyyətinə dair hesabatın, müzakirəsi və təsdiqi;

**2.** ASC-nin 2022-ci ilin yekunlarına dair Müfəttişin hesabatı;

**3.** ASC-nin balansında olan avadanlıqların və texnikaların lazım gəldikdə, satılmasını və silinməsini, İdarə Heyətinin Sədrinə həvalə edilməsi haqqında;

**4.** Carı məsələlər.

Yığıncaq iştirakçılarının qeydiyyatı 09.00-dan 09.45-dək göstərilən ünvanda keçirilir. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi və şəxsiyyəti təsdiq sənəd olmalıdır.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00 -14.00 dək ASC-nin İdarə heyəyinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər. TEL: +994 50 212 16 13

***Müşahidə şurası.***

* * *

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

Humanitar fənlər kafedrası - Baş müəllim
Musiqi nəzəriyyəsi kafedrası - Baş müəllim
Xor dirijorluğu kafedrası - Baş müəllim
Fortepiano, orqan, klavesin kafedrası - Baş müəllim
Kamera ansamblı kafedrası - Baş müəllim, Baş müəllim

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.

Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.


# İmtahan stresindən qurtulmaq üçün nə etməliyik?

**"Təbii haldır ki, həyatımızın müəyyən dönəmlərində çətinliklərlə üzləşib neqativ hadisə olacağını düşünərək stres keçiririk. Bu Mərhələlərdən biri də imtahan dönəmidir. Hansı ki, müxtəlif yaşlarda imtahanlar veririk və bəzən çox uzun illər imtahan verməyə davam edirik. Hansı səbəbdən olmağından asılı olmayaraq uzunmüddətli stres fiziki və zehni sağlamlıqla bağlı problemlərin yaranmasına səbəb ola, öyrənmə və davranışa mənfi təsir göstərə bilir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gövhər Məmmədova deyib.**



Onun sözlərinə görə, imtahanöncəsi insanlar imtahan və imtahandan sonrakı dövrü düşünərək təşvişə qapılırlar, yeni imtahanda bildiklərini unuda biləcəklərini, heçnə yaza bilməyəcəklərini, vaxtı düzgün idarə edə bilməyəcəklərini yaxud imtahan bitdikdən sonra necə olacağını, insanlar soruşduqda nə cavab verəcəyini və s. düşünərək stres üçün yetəri qədər münasib zəmin yaradır: "Bəs necə etməliyik ki, bu hallar yaşanmasın? İmtahan stresini azaltmağın yollarından biri, imtahanın bitməsindən 1 saat keçdiyini təsəvvür etməkdir, sanki imtahan uğurlu keçib və belə olduqda siz hardasınız? Yanınızda kim var? Nə hiss edirsiz? Bu sualları düşünüb xəyal etmək müəyyən qədər təşvişinizi azaldacaqdır. Daha sonra isə nəfəs hərəkətləri edə bilərsiniz, artıq düşüncələr sizi boğmağa başladıqda nəfəs texnikasından istifadə edərək, diafraqma ilə nəfəs alaraq rahatlaya bilərsiniz. Əlavə olaraq deyə bilərəm ki, ən effektiv üsullardan biri özünü psixoloq kimi yoxlamaqdır. Yəni əgər başqa biri sizinlə danışmaq istəyib imtahana görə stres keçirdiyini, qorxduğunu, narahat olduğunu deyərsə, nə edərdin, hansı məsləhəti verərdin? Bunu düşünmək özünü kənardan necə göründüyünü anlamağa, öz daxili sakitliyini qorumağa kömək edəcəkdir. Əgər streslə baş etmək artıq sizə əziyyət verirsə professional dəstək ala bilərsiniz".

***Ləman***


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**